Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

17 İYUL 2019-cu il

№ 125 (4023)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN AVİASİYASINDA QƏRB QIRICILARI DA OLACAQ - «VAŞİNQTON F-16-ların BAKIYA SATILMASINA RAZILIQ VERƏCƏK»

■ səh. 9 ■

Keşikçidağda gürcü dindarların son təxribatı Azərbaycan sərhədçilərini qaralamaq üçün bəzi qüvvələrə fürsət verib ■ səh. 2 ■

KİVDF daha bir dövlət qurumu ilə birgə müsabiqənin qalibi olmuş jurnalistləri mükafatlandırdı... ■ səh. 4 ■

İranla müharibəni istəməyən kimdir - Tramp, ya ətrafı... ■ səh. 8 ■

Azərbaycan hansı nüfuzlu beynəlxalq onluqlarda, beşliklərdə, Ermənistan hansı onluqda - "zibillikdə"... ■ səh. 12 ■

Cəmi 5 ayda Azərbaycanın xarici ticarəti 14 milyard dolları keçdi - müsbət saldo 2,4 milyard... ■ səh. 11 ■

Mərkəzi Bank inflyasiyanı 4,2 faiz həddə saxlaya biləcəkmi - mövsümi aqrar məhsullar belə bahalaşdısa... ■ səh. 11 ■

Bakıda restoranlar bir-birinin ardınca mərasim evlərinə çevrilir - restoran biznesinin çökməsi, ya... ■ səh. 13 ■

Yas mərasimləri yalnız qəbiristanlıqların yanında?... ■ səh. 13 ■




## Venesiya Komissiyası ilə Ermənistan arasında hüquqi islahat mübahisəsi böyüyür - Paşinyanın islahatlarına şübhələr artır...

■ səh. 8 ■






Azərbaycan dünya miqyasında mühüm investorlardan birinə çevrilir - SOCAR Antipinsk zavodunu da satın alsa... ■ səh. 6 ■

Avropa bazarlarını təmin etməkdə Azərbaycanın daha bir tranzit mövqeyi tam reallaşma ərəfəsində... ■ səh. 10 ■

Müstəqillik uğrunda 1988-1989-cu illərin Xalq Hərəkatını bir siyasi təşkilatın xidmət monopoliyasına almaq cəhdləri... ■ səh. 5 ■

■ səh. 3 ■ Əli Həsənov gürcülərin "Keşikçi qala"da sərhədçilərimizə qarşı törətdiyi insidentin arxasını tam aydın göstərdi...



■ səh. 5 ■ Azərbaycan Xalq Hərəkatı deyilən qurumda qalmaqal - sosialistlər niyə tərk etdi...



■ səh. 7 ■ Avroittifaqın Türkiyəyə sanksiya və dialoqu dayandırmaq qərarı - S-400-lərə görə ABŞ-ın təsiri, ya...



■ səh. 12 ■ Dünyaca məşhur Qarabağ atlarına doğru adlar verə bilirikmi?



■ səh. 14 ■ Təhsil nazirinin müavininin iradına dəstək reaksiyaları...



## Münaqişənin həlli nəticəsində Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələrdən erməni xalqı da faydalana bilər - Elmar Məmmədyarov belə dedi

**Azərbaycan Xarici işlər naziri Elmar Məmmədyarov Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin sədrləri Volkan Bozkır və Sofio Katsaravanın başçılıq etdiyi nümayəndə heyətlərini qəbul edib. Xarici İşlər Nazirliyindən (XİN) "Trend"ə verilən məlumata görə, görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov da iştirak edib.**



E.Məmmədyarov üçtərəfli formatda Xarici işlər nazirləri tərəfindən mütəmadi olaraq səmərəli görüşlərin keçirildiyini qeyd edərək, qanunverici qurumlar səviyyəsində üçtərəfli iclasların keçirilməsini təqdirəlayiq bir hal kimi qiymətləndirib və parlament diplomatiyasının əməkdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynadığını xüsusilə vurğulayıb. Parlamentlər arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və mövcud formatın genişləndirilməsi məqsədilə faydalı fikir mübadiləsinin aparıldığını bildirən qonaqlar hər üç ölkənin xarici işlər nazirləri tərəfindən keçirilən üçtərəfli görüşlərin münasibətlərin inkişafına töhfə verdiyinə əminliklərini ifadə ediblər. Regionda mövcud münaqişələrə toxunan qonaqlar mövcud münaqişələrin beynəlxalq hüququn prinsipləri, ələlxüsus dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri və ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyini vurğulayıblar. Öz növbəsində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verən nazir E.Məmmədyarov münaqişənin həllinin regionda sülhü və rifahı möhkəmləndirəcəyinə əminliyini qeyd edib və ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələrdən erməni xalqının da faydalana biləcəyini bildirib. Görüş zamanı tərəflər hər üç ölkənin iştirakı ilə həyata keçirilən layihələr, eləcə də qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparıblar. Qeyd edək ki, iyulun 15-də Bakıda Azərbaycan-Türkiyə-Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin növbəti üçtərəfli iclası keçirilib.

## Polşa Milli Olimpiya Komitəsinin vitse-prezidentinin adı Azərbaycan XİN-in arzuolunmaz şəxslər siyahısından çıxarılıb

**Polşa Respublikasının vətəndaşı, hazırda həmin ölkənin Milli Olimpiya Komitəsinin vitse-prezidenti Tomaş Paremba Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən bakixeber.com-a verilən məlumata görə, məktubunda Tomaş Paremba Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bəyan edir və işğal edilmiş ərazilərə sözügedən səfəri ilə heç bir halda ölkəmizin ərazi bütövlüyü və suverenliyini şübhə altına almaq niyyətində olmadığını bildirir. Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## Aİ və Türkiyənin "Cənub Qaz Dəhlizi" layihəsinin maneəsiz həyata keçirilməsinə böyük dəstəyi təqdir olundu

**Avropa İttifaqı (Aİ) və Türkiyə Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan "Cənub Qaz Dəhlizi" layihəsinin maneəsiz həyata keçirilməsinə böyük dəstək göstərib.**

"Trend"in məlumatlna görə, bunu Avropa Komissiyasının energetika üzrə vitse-prezidenti Maroş Şefçoviç "Cənub Qaz Dəhlizi"nin iştirakçılarından biri olan Türkiyə ilə Aİ arasındakı münasibətlərdən danışarkən deyib.

Onun sözlərinə görə, Aİ ilə Türkiyə arasında əməkdaşlıq potensialı çox yüksəkdir.

Vitse-prezident qeyd edib ki, layihə gələn il istismara veriləcək: "Bundan sonra Cənubi Avropa ölkələri, eləcə də Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya Türkiyə ərazisi ilə nəql edilən Azərbaycan qazını alacaq".

**Məlum olduğu kimi, iki gün əvvəl Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keşikçi qala" sərhəd zastavasının xidməti ərazisində Gürcüstan vətəndaşları tərəfindən Azərbaycan sərhəd naryadına qarşı insident törədilib.**

## Keşikçidağda gürcü dindarların son təxribatı Azərbaycan sərhədçilərini qaralamaq üçün bəzi qüvvələrə fürsət verib

Gürcüstandan olan bir qrup şəxsin Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozaraq Azərbaycan ərazisində yerləşən Keşikçidağ mağaralar kompleksi yaxınlığında xidmət aparan sərhəd naryadına hücum etməsi və onları nalayiq ifadələrlə təhqir etməsi ilə bağlı Gürcüstanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və ondan məsələ ilə bağlı müvafiq izahat istənib.

Gürcüstan-Azərbaycan sərhədində baş verən xoşagəlməz halla bağlı sosial şəbəkələrdə müxtəlif xarakterli fikirlər yer alıb. Bir sıra sosial şəbəkə istiafdəçiləri baş verən insidenti şişirdərək Azərbaycan sərhədçilərini qaralamaq yolu tutublar. Onlar sərhədçilərlə bağlı həqiqətə uyğun olmayan ifadələr işlədir, onlara qarşı ittihamlar irəli sürürlər. Sərhəddə Gürcüstan vətəndaşlarının törətdiyi insidentdən sui-istifadə edərək sərhədçilərimizə qarşı qara piar kampaniyası aparanların məqsədi aydındır. Belələri Azərbaycan sərhədçilərini gözdən salmağa xidmət edirlər. Halbuki, Azərbaycanın ərazi bütövlüyünün qorunmasında sərhədçilərin əməyi danılmazdır.

**"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə bildirdi ki, sosial şəbəkə qəhrəmanlarının əsas məqsədi sərhədçilərin əməyinə kölgə salmaqdır.** "Sosial şəbəkələrdə "qəhrəmanlıq" etmək çox asandır. Burada bəzi adamlar məsələnin mahiyyətinə varmadan və heç bir arqumentə söykənmədən fikir bildirirlər. Belələri sosial şəbəkələrdə "qəhrəmanlıq" etməklə məşğuldurlar. Onlar məsələnin mahiyyətini dərk etmədən, sərhəddə baş verən insident zamanı Azərbaycan sərhədçilərinin bütöv bir təxribatın qarşısını aldığının fərqinə varmadan ucuz şoularla, qara piarla məşğul olurlar. Sözün doğrusu, bu məsələyə sosial şəbəkələrdə bir neçə tərəfdən yanaşmalar var. Burada baş verən insidentdən sui-istifadə edərək Azərbaycanın ayrı-ayrı dövlət qurumlarına, o cümlədən də Sərhəd Qoşunlarına qarşı qarayaxma kampaniyası aparanlar da çoxdur. Başqa bir qrup isə məsələyə emosional şəkildə yanaşır. Əlbəttə, hər iki qrupun münasibəti yolverilməzdir. Bir qisim insan isə hadisənin mahiyyətinə varan və onu qiymətləndirəndir. Təbii ki, sərhəddə gürcülər tərəfindən bizə qarşı arzuolunmaz bir insident baş verib. Bilirsiniz ki, Gürcüstan tərəfdə xaricdən idarə olunan müxtəlif qüvvələr var və onlar Azərbaycan-Gürcüstan münasibətlərinə xələl gətirməyə çalışırlar, bunun üçün də provokasiya üsullarına əl atırlar. İnsidenti törədən insanların xüsusilə öyrədilməsi qətiyyən şübhə doğurmur. Belə şəxslərə qarşı Gürcüstan tərəfin adekvat tədbir görməməsi də narahatlıq yaradan amildir. Düşünürəm ki, bu məsələlərdə tarixən dost, qardaş olan gürcü və Azərbaycan xalqları qara qüvvələrin onların arasına nifaq saldığını yaxşı başa düşürlər" - deyə E.Mirzəbəyli qeyd etdi.



*Giya Paçxataşvili: "Sosial şəbəkələrdə Azərbaycan sərhədçilərinin fəaliyyətinin qaralanmasına rəvac verən fikirlər yolverilməzdir"*

*Elçin Mirzəbəyli: "Baş verən insidentdən sui-istifadə edərək Azərbaycanın ayrı-ayrı dövlət qurumlarına, o cümlədən də Sərhəd Qoşunlarına qarşı qarayaxma kampaniyası aparanlar da çoxdur"*

E.Mirzəbəylinin sözlərinə görə, sosial şəbəkə "qəhrəmanları" unudurlar ki, Azərbaycan sərhədçiləri torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından belə keçiblər. Sərhəd pozucuları ilə mübarizədə sərhədçilərimizin göstərdiyi şücaətləri bəzi sosial şəbəkə istifadəçilərinin unutmasından təəssüfləndiyini deyən müsahibimiz bildirdi ki, neçə-neçə sərhədçimiz bu yolda şəhid olub.

**Gürcü əsilli tanınmış şair-tərcüməçi Giya Paçxataşvili də Gürcüstan-Azərbaycan sərhədində baş verən insidentdən öz məqsədləri üçün istifadə edən şəxslərin olduğunu bildirdi. G.Paçxataşvili hesab edir ki, baş verən olayın sosial şəbəkələrdə bu şəkildə müzakirə edilməsi, ona müxtəlif biçim verilməsi düzgün deyil.** "Baş verən hadisə təəssüf doğurur. Gürcü və Azərbaycan xalqları tarixən qardaş, dost olublar, bir-birinə xəyanət etməyiblər. Bu gün sosial şəbəkələrdə baş verən hadisədən sui-istifadə edən qüvvələr geniş fəaliyyətə keçiblər. Bu insident iki dövlət tərəfindən müzakirə ediləcək və günahkar cəzalandırılacaq. Sosial şəbəkələrdə Azərbaycan sərhədçilərinin fəaliyyətinin qaralanmasına rəvac verən fikirlər yolverilməzdir" - deyə G.Paçxataşvili qeyd etdi.

*İradə SARIYEVA*

## Rektor BDU-dakı dəyişikliklərə açıq şəkildə müqavimət göstərənlərə mesaj verdi...

**Son aylar ərzində Bakı Dövlət Universitetində aparılan dəyişikliklər hamı tərəfindən birmənalı qarşılanmır.**

Buna açıq şəkildə müqavimət göstərənlər də var. "Trend"in məlumatına görə, bunu Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev "Ali təhsil müəssisələrində piar: strukturun və media ilə işin düzgün qurulması, hədəf auditoriyaları" mövzusunda konfransda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, universitetlər piar sahəsində rəqabət aparmalıdır, amma bu rəqabət sağlam olmalıdır: "Təəssüflər olsun ki, bəzən bu rəqabət çərçivədən çıxır, istər-istəməz digər söhbətlərin yaranmasına səbəb olur. Bu isə bizim Təhsil Nazirliyi sistemində apardığımız ümumi işə kölgə salır. Bu mənada mən universitetləri həmrəyliyə çağırıram. Təbii ki, hər bir universitetin özünəməxsus inkişaf strategiyası var. Amma bu strategiya ölkədə təhsilin, gəncliyin formalaşmasına xidmət etməlidir. Ümumilikdə həmkarlar arasında müəyyən etik məsələləri də gözləmək lazımdır".



Bu il BDU-nun 100 ili qeyd olunduğunu xatırladan rektor qeyd edib ki, mətbuat və informasiya sahəsində işlərini yenidən qurmaq üçün digər təcrübələri öyrənirlər.

**E.Babayev onu da əlavə edib ki, bu gün Azərbaycanın söz azadlığı sahəsində çox böyük uğurları var: "Nə qədər gözü götürməyən qüvvələr olsa da, qara yaxmağa çalışsalar da, Azərbaycanda kifayət qədər söz azadlığı mövcuddur".**

# Əli Həsənov gürcülərin "Keşikçi qala"da sərhədçilərimizə qarşı törətdiyi insidentin arxasını tam aydın göstərdi - böyük güclərin geosiyasi maraqları, Gürcüstanda və Azərbaycanda xarici təsirlər altında olan siyasi qrupların hakimiyyət marağı...

**"Görünür, iki qonşu dövlət arasındakı dostluq kimlərisə narahat edir və bu ölkələri, xalqları qarşı-qarşıya qoymağa çalışan qüvvələr var". Bunu "Keşikçi qala" sərhəd məntəqəsində baş vermiş məlum hadisə ilə bağlı Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Trend"ə açıqlamasında bildirib.**

Ə.Həsənov deyib: "İyulun 14-də "Keşikçi qala" sərhəd məntəqəsində bir qrup Gürcüstan vətəndaşı tərəfindən Azərbaycanın sərhəd növbətçi dəstəsinə qarşı insident törədilib. Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində insident aradan qaldırılıb və ərazidə təhlükəsizlik təmin edilib.

Qeyd etməliyik ki, ümumiyyətlə, son aylar ərzində Azərbaycan və Gürcüstan arasında strateji münasibətlərin ruhuna tamamilə zidd olan bu tipli təxribatların artan xətt üzrə inkişafı müəyyən suallar doğurmaya bilməz. Artıq hər iki tərəfin ekspertləri səviyyəsində müzakirələrdə belə fikirlər səslənir ki, görünür, iki qonşu dövlət arasında formalaşmış dostluq, strateji tərəfdaşlıq münasibətləri kimlərisə ciddi narahat edir və bu ölkələri, onların xalqlarını qarşı-qarşıya qoymağa çalışan qüvvələr var.

Müzakirələrdə bu qüvvələrin kimliyi barədə də müəyyən fikirlər səsləndirilir. Şübhəsiz, Azərbaycan sərhədçilərinə qarşı törədilən son təxribat dövlətlər arasındakı münasibətlərə birbaşa zərbə vurmaq məqsədi daşıyır və ona görə də hər iki ölkənin müvafiq qurumları ciddi araşdırmalar aparmalı, bu təxribatı törədən qüvvələri müəyyən edərək onlara qarşı ciddi ölçü götürülməlidirlər. Artıq Gürcüstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət olunub, ondan məsələ ilə bağlı müvafiq izahat istənilib. Gürcüstan Xarici İşlər Nazirliyi də hadisəni pisləyən açıqlama ilə çıxış edib və bu istiqamətdə ciddi araşdırmalar apararaq günahkarların məsuliyyətə cəlb ediləcəyinə söz verib.

Əlbəttə, biz əminik ki, Azərbaycan və gürcü xalqları bundan sonra da belə məqamlarda təmkinlə, müdrikcəsinə davranaraq, emosiyalara meydan verməyəcək, müvafiq rəsmi instansiyalar isə prinsipial şəkildə bu hadisələrin törədilməsində, iki dost ölkə arasında münasibətlərin gərginləşdirilməsində maraqlı olan qüvvələri, şəxsləri aşkarlayaraq cəzalandırılmasını təmin edəcəklər. Qaranlıq dairələrin dövlətlərarası münasibətlər müstəvisində söz sahibinə çevrilməsinə imkan verməK olmaz və belə cəhdlərə birdəfəlik son qoyulmalıdır.

Bununla yanaşı, təəssüflə qeyd edilməlidir ki, baş verən hadisələrdə böyük güclərin geosiyasi maraqları və onların daxili siyasi qüvvələrlə manipulyasiya cəhdləri özünü aydın büruzə verir. Həmçinin, istər Gürcüstanda, istərsə də Azərbaycanda əsasən xarici təsir altında olan bəzi maraqlı siyasi qruplar baş vermiş insidentdən yararlanmağa və hakimiyyət uğrunda mübarizədə belə həssas məqamlardan istifadə etməyə çalışırlar. Görünən odur ki, bəhs olunan qruplar mövcud vəziyyətdən bəhrələnmək istəyən üçüncü tərəflərin tarixi-dini stereotiplərlə manipulyasiyası üçün açıqdırlar və bəzən də bilərəkdən xarici təsir üçün könüllü alət rolunu oynayırlar. Biz əvvəllər də ölkəmizin strateji maraqlarına qarşı "beşinci kolon"un imkanlarından istifadə cəhdlərini ifşa etmişik və buna yol verməmək zərurəti haqqında danışanda, məhz belə halları nəzərdə tuturuq.

Qafqazda yeni münaqişə ocağı yaratmaq istəyənlərin diplomatik münasibətləri pozmaq, silaha sarılmaq kimi təxribatçı bəyanatları artıq xeyli vaxtdır ki, eşidilməkdədir. Məqsəd, əlbəttə ki, Cənubi Qafqazda yeni münaqişə ocağı alovlandırmaq yolu ilə öz ambisiyalarını Azərbaycan və Gürcüstana qəbul etdirməkdən ibarətdir. Bunun üçün onlar bir tərəfdən Gürcüstanda daxili siyasi çəkişmələri qızışdırmağa, o bir tərəfdən Azərbaycanda daxili radikal qrupların bu ölkədəki proseslərlə bağlı təxribatçı çağırışlarını təşkil etməklə iki dost ölkə arasında milli-vətəndaş ehtiraslarını qızışdırmaq və bu fonda qarşıdurma yaratmağa can atırlar. Lakin onlara 2015-ci ildə Türkiyə ilə Rusiya arasında az qala qarşıdurmaya səbəb olmuş təyyarə insidentini xatırlatmaqla böyük diplomatik qalmaqaldan tərəflərin necə müdrikcəsinə çıxması nümunəsini xatırlatmaq istərdik. Həmin dövrdə də hər iki tərəfdə münasibətləri hərb meydanında ayırd etməyə çağırışlar olurdu. Lakin Moskva və Ankara təxribata getmədilər, məsələnin kökünü araşdırdılar, günahkarlar tapıldı və ciddi fəsadlar vəd edən insident aradan qaldırıldı.

Buna görə də Azərbaycan və Gürcüstan vətəndaşları qızışdırıcı çağırışlara uymamalıdırlar. İndi emosional çağırışlar, impulsiv davranış deyil, təmkin və müdriklik nümayiş etdirməyin zamanıdır.

Azərbaycan sərhədlərinin demarkasiya və delimitasiyası ilə bağlı müzakirələr yalnız Gürcüstanla aparılmır. Tarixə nəzər salsaq, görərik ki, bu məsələdə insident yaşanan yeganə sərhəd xətti də son hadisənin baş verdiyi "Şəmkir" sərhəd dəstəsinin ərazisi olmayıb. Amma Azərbaycan ictimaiyyəti onu da çox gözəl bilir ki, mübahisələr, insidentlər zamanı bizim diplomatlarımız və sərhədçilərimiz bəzən ağır, yorucu görünən müzakirələrdə heç vaxt təmkinlərini itirməyiblər, milli maraqlarımızı əzmlə, peşəkarlıqla qoruyublar, Azərbaycanın haqlı mövqeyindən zərrə qədər də geri addım atmayıblar və bundan sonra da belə olacaqdır.



Müdrik gürcü və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin çox dərin tarixi kökləri var, indiyə qədər bu xalqları qarşı-qarşıya qoymaq, ədavətə sövq etmək kimsəyə müyəssər olmayıb. Münasibətlərimizin tarixi təcrübəsi göstərir ki, bizim talelərimiz də xeyli dərəcədə oxşar və bir-birinə bağlıdır. Bu tarixi təcrübə bizi qarşı duran tərəflər deyil, tərəfdaş olmağı, müstəqilliyimizi birlikdə qorumağı, sivil dünyaya birlikdə inteqrasiya etməyi öyrədir. Biz iqtisadi sahədə uğurlu əməkdaşlıq nümunəsini ortaya qoymaqla, hər iki ölkəyə böyük dividendlər gətirən mühüm enerji və nəqliyyat layihələrini reallaşdırmaqla fəal tərəfdaşlığın ən bariz nümunəsini bütün dünyaya nümayiş etdirmişik. Ölkələrimiz üçün taleyüklü məqamlarda dost dəstəyinin, bu dostluğa sadiqliyin hansı anlama gəldiyini əməli işimizlə göstərmişik. Əminik ki, bundan sonra da iki dost xalq arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək. Radikal mövqe tutaraq xalqları, dövlətləri təxribata çəkmək, bir-birinə qarşı qoymaq meylləri müdriklik, əsrlərin sınağından çıxmış qarşılıqlı etimad mühiti qarşısında məğlub olacaq və regionumuzun yeni reallıqlarını unudaraq orta əsrlərin xiffətini çəkənlərin ekstremist təşəbbüsləri iflasa uğrayacaq".

**İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və "Azərenerji" ASC-nin birgə təşkil etdiyi "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıb.**




# KİVDF daha bir dövlət qurumu ilə birgə müsabiqənin qalibi olmuş jurnalistləri mükafatlandırdı...







Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, "Azərenerji" ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak edib. Tədbirin əvvəlində "Azernerji" ASC-nin "Reabilitasiya proqramı" çərçivəsində görülmüş işlərdən bəhs edən qısa videoçarx nümayiş olunub.

Qonaqları salamlayan "Azərenerji" ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev bildirib ki, ötən ilin payızından başlayaraq "Azərenerji" ASC tərəfindən "Reabilitasiya Proqramı"na start verilib və Mingəçevirdə yerləşən "Azərbaycan" İstilik Elektrik Stansiyası da daxil olmaqla ölkədəki 12 elektrik stansiyasında, sistem əhəmiyyətli 17 yarımstansiyada 100-dən artıq təyinat üzrə yenidənqurma, təmir və bərpa işləri aparılır: "35 elektrik stansiyası və 150 yarımstansiyanı əhatə edəcək SCADA Dispetçer İdarəetmə Sistemi yenidən qurulur, Azərbaycan enerji sistemində qəza rejimlərinin məhdudlaşdırılması və tam ləğvini mümkün etmək üçün mikroprosessor texnikasının tətbiqi, həmçinin modernləşdirilməsi ilə yeni əks qəza avtomatika kompleksləri yerinə yetirilir".





Vüqar Əliyev həmçinin bildirib ki, 2018-2021-ci illəri əhatə edən "Reabilitasiya proqramı"nın həyata keçirilməsində əsas məqsəd itirilmiş gücləri bərpa etmək, enerjisistemin etibarlığını və dayanaqlığını təmin edərək inkişafa nail olmaqdır: "Reablitasiya proqramı çərçivəsində 800 MVt-dan artıq "itirilmiş" gücün bərpası planlaşdırılıb".

"Azərenerji ASC" prezidentinin müşaviri görülən işlərin ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında jurnalistlərin rolunu da xüsusi vurğulayıb. O, təşkil olunmuş müsabiqənin əhəmiyyətini yüksək qiymətləndirdiyini bildirərək yekun nəticələr barədə danışmaq üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.

Tədbir iştirakçılarını salamlayan Vüqar Səfərli media nümayəndələrini Milli Mətbuatın yaranmasının 144-cü ildönümü münasibətilə təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb. Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib.

Azərbaycanın davamlı və sabit inkişafında energetika sisteminin rolunu xüsusi qeyd edən Vüqar Səfərli bir ilə yaxın müddətdə bu sahədə mühüm islahatların aparıldığını, enerjisistemin etibarlığının xeyli dərəcədə yüksəldiyini bildirib. İcraçı direktor əlavə edib ki, "Azərenerji" ASC ilə birgə keçirilən müsabiqənin əsas məqsədi Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi ilə əlaqədar reallaşdırılan tədbirlərin ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

Çıxışını davam etdirən Vüqar Səfərli bildirib ki, 2019-cu il mayın 10-dan iyulun 5-dək davam edən birgə fərdi jurnalist yazıları müsabiqəsinə 25 KİV-dən 35 yazı təqdim edilib, yazılar üç nəfər ekspert tərəfindən qiymətləndirilib. İcraçı direktor yekun nəticələrə əsasən yazı müəlliflərindən 6 nəferinin əsas, 10 nəfərinin həvəsləndirici mükafatlara layiq görüldüyünü diqqətə çatdırıb.

Sonra qaliblərə fəxri diplom və pul mükafatları təqdim olunub.

Tədbiri yekunlaşdıran "Azərenerji" ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev media münayəndələrini Milli Mətbuat Günü münasibətilə təbrik edib, habelə Fondla bundan sonra da müştərək layihələrin həyata keçiriləcəyini vurğulayıb.

# Müstəqillik uğrunda 1988-1989-cu illərin Xalq Hərəkatını bir siyasi təşkilatın xidmət monopoliyasına almaq cəhdləri...

**Azərbaycan xalqı, 1988-ci ilin Meydan Hərəkatından başlayaraq, açıq formada bir yumruq kimi birləşərək mübarizəyə qalxdı. Əsrlərdən bəri Azərbaycan xalqı ilə onun düşmənlərinin arasında gedən savaş gizli siyasi fəaliyyətlərdən açıq kütləvi hərəkata keçdi.**



## *Fazil Mustafa: "Bu adı və yubileyi heç bir partiya inhisarına ala bilməz"*

1920-ci ildə azadlığını və dövlət müstəqilliyini itirmiş, Rus imperiyası tərəfindən əsarətə alınmış, 70 il repressiyalarla susdurulmuş Azərbaycan xalqı növbəti dəfə ayağa qalxdı və təşkilatlanmağı bacardı. Əvvəl Qarabağın üzərini almış qara buludlara - rus-erməni işğalı təhlükəsinə görə ayağa qalxan Azərbaycan xalqı cəbhələşdi və SSRİ adlanan rus imperiyasına qarşı açıq savaş açdı. Cəbhələşmiş məğrur və mübariz xalqımız təşkilatlandı, 1989-cu ilin 16 iyul tarixində Azərbaycan Xalq Cəbhəsini təsis edib, Milli Azadlıq Hərəkatına təşkilati formada start verdi. Hazırda AXC-nin yaranmasından 30 il keçir. Ancaq siyasi arenada baş verən hadisələrdən görünür ki, bəzi təşkilatlar bu bayramı özününküləşdirmək istəyir və belə hərəkətlər də birmənalı qarşılanmır. Məsələn, Əli Kərimlinin rəhbərlik etdiyi AXCP 30 illik tarixi yalnız partiyanın yubileyi kimi qeyd etməkdə israrlıdır. Təqdimatlardan belə nəticəyə gəlinir ki, onlar həmin hərəkatın ən layiqli və hüquqi varisi kimi indiki AXCP-nin olduğunu açıq iddia edirlər. 30 illik yubileyini qeyd edən bir hərəkatı bir partiyanın inhisara almaq cəhdi nə dərəcədə doğrudur?

**Azərbaycan Xalq Hərəkatının fəal iştirakçılarından olan, millət vəkili Fazil Mustafa "Bakı-Xəbər"ə bildirdi ki, bu adı və yubileyi heç bir partiya inhisarına ala bilməz:** "Xalq Cəbhəsi adı və hərəkatı Azərbaycanda böyük dəyişiklik yaradan bir missiyanı uğurla həyata keçirib. Xalq Hərəkatından çıxan çox partiya var. Elə adamlar var ki, bu gün siyasətdə deyil, ancaq onların hamısının bu ada iddia etməyə, təntənəli yubileyi öz bayramı kimi qeyd etməyə mənəvi haqqı çatır. Təəssüf ki, Xalq Cəbhəsinin adını götürüb, lakin əxlaqını götürə bilməyənlər daha çox canfəşanlıq edirlər. Sanki bu yolu yalnız onlar davam etdirir kimi mövqe sərgiləyirlər. Halbuki, hərəkatın lideri Əbülfəz Elçibəyə bəslədikləri münasibətləri ilə də onlar sübut ediblər ki, buna mənəvi haqları çatmır. Biz heç də demirik ki, bu gün AXCP adı ilə fəaliyyət göstərənlərin bu bayramı qeyd etməyə haqqı çatmır. Ancaq buna sahib çıxmaq kimi mövqe ortaya qoymaq haqqına sahib deyillər. Onlar, əslində, AXC adı ilə immitasiya etməklə məşğuldurlar. Bu tarixi ada sahib çıxmaq cəhdi ilə mövcudluqlarını qoruyub saxlamaq istəyirlər. Həmin Xalq Hərəkatının əsas hədəflərindən biri Azərbaycanın müstəqilliyinə nail olmaq idi. Bir çox insan bu məqsədə nail olduqdan sonra ölkənin inkişafı üçün çalışmağa başladı. Ancaq biz görürük ki, AXCP adlı bir qurum inad mübarizəsi aparır, hansısa məğlubiyyətin revanşını qazanmağa çalışır. Hər kəs hərəkatın mahiyyətinə uyğun şəkildə davranmalıdır. Elə adamlar var ki, Rəsulzadənin də adını inhisara almağa çalışır. Ancaq maraqlandıqda məlum olur ki, onun yazdığı tezislərdən birini də oxumayıb. Hansısa dəyərə sahib çıxmaq, tarixi adı mənimsəmək cəhdi hər zaman olub. Bu həmin hərəkatda iştirak edən hamının yubileyidir. Xalq Hərəkatına mərhum Heydər Əliyev, Murtuz Ələsgərov da böyük dəstək veriblər. Hətta Murtuz Ələsgərov həmin hərəkatın məclis üzvü olub. Biz necə onların rolunu dana bilərik? Adı daşımaq o demək deyil ki, sən həmin mirasa tam sahibsən. Biz çoxlu sayda Məhəmməd adında adam görürük. Bu o demək deyil ki, onların hamısı peyğəmbər əxlaqındadır.

*"Xalq Hərəkatına mərhum Heydər Əliyev, Murtuz Ələsgərov da böyük dəstək veriblər"*

**Və ya Nizami adında olan şəxslərin heç də hamısı şair deyil ki. Ad üzərində manipulyasiya etməyin əhəmiyyəti yoxdur. Bundan çox əxlaq və əməl önəmlidir. Hesab edirəm ki, bu gün Xalq Hərəkatının şinelindən çıxan hər şəxsin bayramıdır. Hamını təbrik edirəm".**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Azərbaycan Xalq Hərəkatı deyilən qurumda qalmaqal - sosialistlər niyə tərk etdi...

**Artıq ölkədə Azərbaycan Xalq Hərəkatı adında iki qurum fəaliyyət göstərir. Əvvəl vahid olan qurumu daxili intriqalar ikiyə parçalayıb. Əldə ediyimiz məlumata görə, hətta ikiyə parçalanmış qurumlarda belə "yarpaq tökümü", daxili qalmaqallar davam edir. Redaksiyamıza daxil olan məlumata görə, AXH qanadlarından birində təmsil olunan Azərbaycan Sosialist Partiyası (ASP) böyük bir qalmaqalla qurumu tərk edib.**



## *Elşən Həsənov: "Dedim ki, sizin kimi adamlarla bir masa ətrafında oturmağı belə özümə sığışdırmıram"*

Maraqlıdır ki, hadisənin ictimailəşməsində nə qurumu tərk edən partiya, nə də orada təmsil olunan digərləri maraqlı deyillər.

**Məsələni dəqiqləşdirmək üçün ASP sədri Elşən Həsənovla əlaqə saxladıq. O, qəzetimizə açıqlamasında qurumu tərk etdiyini təsdiqlədi:** "AXH yarananda biz də qərara gəldik ki, tribuna əldə etmək üçün həmin hərəkatda təmsil olunaq. Amma bir müddət sonra gördük ki, həmin qurumda yalnız şəxsi mənfəətlər güdülür, verilən sözlərə əməl olunmur. Qurum parçalananda biz İsgəndər Həmidovun qanadında qaldıq. Bir neçə iclasdan sonra gördük ki, orta da şəffaflıq yoxdur. Könüllü olaraq oranı tərk etdik. Sonra bir məclisdə digər AXH-də təmsil olunan Azadlıq Partiyasının sədri Əhməd Oruc məni onların qurumunda təmsilçiliyə dəvət etdi. Bildirdi ki, sol təmayüllü partiyaların təmsilçiliyinə ehtiyac var. Biz də müzakirələrdən sonra qərara gəldik ki, təmsil olunaq. Namizədliyimiz səsə qoyuldu və biz idarə heyətinin üzvü seçildik. İclasların birində dönəm sədrli kimi fəaliyyət göstərən Hacıbaba Əzimov vətəndaşların mülkiyyət məsələsini gündəmə çıxardı. Gördüm ki, öz şəxsi problemini qabardır və bunu AXH adı ilə həll etmək istəyir. Mən qalxıb buna etiraz etdim. Növbəti iclasda 81 yaşlı kişi mənə açıq dedi ki, ASP dövlət qeydiyyatından keçmədiyi üçün, burada təmsil oluna bilməz. Mən dedim onda niyə səsə qoyub qəbul edirdiniz? Növbəti iclası onlar parklardan birində keçirirdilər. Onda da yerlərini mənə deməmilər. Gedib özüm onları zorla tapdım və nə lazımdır üzlərinə söylədim. Dedim ki, sizin kimi adamlarla bir masa ətrafında oturmağı belə özümə sığışdırmıram. Nəhayət, iyulun 15-də keçirilən iclasa qatıldım. Hacıbala Əzimov mənə dedi ki, idarə heyətinin üzvü olmadığım üçün, orada iştirak edə bilməyəcəm. Gülməli irad olduğunu iclas iştirakçılarının diqqətinə çatdırdım. Gördüm ki, hamısı susub. Etiraz edib, qurumu birdəfəlik tərk etdim. AXH-ni tərk etmək barədə partiya səviyyəsində də qərar verdik. Mən başa düşə bilmirəm, partiya sədrləri kiminsə ambisiyalarına uyğun mövqe ortaya qoyurlarsa, həqiqəti müdafiə etməkdən çəkinirlərsə, sabah onlar xalqı necə idarə edəcəklər? Bu adamlar öz şəxsi məsələsini həll etmək istəyir, buna etiraz edənə isə belə aqressiya göstərirlər. Biabırçı vəziyyətdir".

*"Bu adamlar öz şəxsi məsələsini həll etmək istəyir, buna etiraz edənə isə belə aqressiya göstərirlər"*

*Məhəmmədəli* **QƏRİBLİ**

# Azərbaycan dünya miqyasında mühüm investorlardan birinə çevrilir - SOCAR Antipinsk zavodunu da satın alsa...

**İqtisadi müstəvidə fəaliyyətini davamlı şəkildə genişləndirən Azərbaycan üçün bu gün xarakterik xüsusiyyətlərdən biri onun dünya miqyasında potensial investora çevrilməsidir. Hazırda Azərbaycan region ölkələri arasında ən çox sərmayə cəlb edən ölkə olmaqla yanaşı, həm də ən böyük investordur. Aparılan hesablamalar göstərir ki, Azərbaycanın 15 il ərzində xaricə investisiyaları 21 milyard dolları ötüb.**




Ölkə Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və bir çox digər ölkələrdəki layihələrə sərmayə yatırıb. Bu zaman investisiyaların xeyli hissəsi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) payına düşüb.

Ekspertlər də qeyd edir ki, indi SOCAR-ı transmilli şirkət kimi göstərmək olar. Çünki o, öz coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirib və genişləndirməyə davam edir. SOCAR Avropada və postsovet məkanında investisiya layihələrində fəal iştirak edir. Bu xüsusda son dövrlərdə diqqət cəlb edən məqamlardan biri Antipinsk Neft Emalı Zavodu ətrafında baş verənlərdir. Belə görünür ki, zavod tezliklə SOCAR-ın idarəçiliyinə keçəcək. SOCAR-la yanaşı bu zavodu almaq istəyənlər sırasında Rusiyanın enerji nəhəngləri sayılan "Rosneft" və "LUKoil" də var. Amma görünən budur ki, ən sərfəli şərtlər SOCAR tərəfindən təqdim edildiyindən, zavodun idarəçiliyi Azərbaycana keçəcək.

Artıq zavoda nəzarət edən Rusiyanın "Sberbank"ı bəyan edib ki, SOCAR yerli törəməsi "SOCAR-Enerqoresurs" şirkəti vasitəsilə zavodun səhmlərinin 80%-ni əldə edib. Bununla da "Sberbank"la birlikdə bir neçə investor həm zavoda, həm də onun xammal bazasını təşkil edən Orenburq vilayətindəki yataqlara nəzarəti ələ keçirib. Hazırda zavodun yeni sahiblərinin qarşısında əsas məsələ onun fasiləsiz fəaliyyətini təmin etmək, Rusiya və xarici bazarlara neft məhsulları tədarük etmək, federal və yerli büdcəyə vergi ödəməkdir. Bu missiyanın öhdəsindən gələ biləcək əsas investor qismində də məhz SOCAR qəbul olunur.

Məşhur "Forbes" nəşrinin 2016-cı ildə açıqladığı reytinqə görə, Antipinsk Neft Emalı Zavodu əldə etdiyi mənfəətin məbləğinə görə Rusiyada özəl müəssisələr arasında 43-cü yeri tutub.

Zavod ildə 9 milyon tondan çox emal gücünə malik olub, onun istehsal etdiyi dizel yanacağı "Euro-5" standartına uyğundur. 2016-cı ildə burada yeni emal qurğusunun işə salınması ilə mazut emalının səviyyəsi 98%-ə çatdırılıb. Amma sonradan bərbad idarəçilik nəticəsində zavod iflasa uğrayıb. Hazırda onu dirçəldə biləcək tərəf qismində də məhz SOCAR qəbul olunur. Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun təmsilçisi Aleksandr Karavayev bütün bunları yüksək qiymətləndirir. Onun sözlərinə görə, atılan addımlar Azərbaycanın investor kimi də mövqeyini gücləndirir və o, bu xüsusda SOCAR-ın işini də yüksək qiymətləndirir: "Azərbaycanda belə səviyyəli digər şirkət yoxdur. Bu şirkət və Azərbaycan vəhdətin təzahürüdür. Azərbaycanın bütün dünya üzrə investisiyalarının ümumu həcmində SOCAR-ın payı 95 faiz təşkil edir. SOCAR bir növ Azərbaycanın "əlidir". SOCAR təkcə neftin hasilatı və nəqli ilə deyil, həm də onun satışı ilə məşğuldur. Dünyanın müxtəlif ölkələrində yanacaqdoldurma şəbəkələri, geniş diler şəbəkəsi, neft emalı üzrə törəmə müəssisələri var".

A.Karavayev "media" portalına açıqlamasında qeyd edib ki, SOCAR qlobal şirkətdir: "Bu brenddir. Əlbəttə ki, kapitallaşmada "Rosneft", BP, "Total" kimi dünya liderləri ilə müqayisədə fərqi nəzərə almaq lazımdır. Lakin SOCAR düzgün məcrada fəaliyyət göstərir, düzgün strateji inkişaf yolunu seçib. Bu özünü şirkətin emal sahələrinə - "SOCAR Polymer", SOCAR-ın karbamid zavoduna və digərlərinə sərmayə qoyaraq gəlirlərini şaxələndirməyə çalışmasında göstərir. Görünür, SOCAR iqtisadiyyatın karbohidrogen xammalının emalı ilə bağlı olan digər sahələrinə təkan verməyə çalışır". Ekspert hesab edir ki, bütün bunlar şirkətin məsuliyyətli olduğunu təsdiq edir və o, biznesin inkişafı üçün müasir metodlardan istifadə edir: "Şirkət gələcəkdə necə inkişaf edəcək? Fikrimcə, SOCAR-ın bununla bağlı öz planları var. Alternativ enerjinin imkanlarını, yeni texnologiyaların hazırlanmasına vəsait yatırılmasını misal göstərmək olar. Bununla artıq bu gün məşğul olmaq lazımdır. SOCAR-dan çox şey asılıdır. SOCAR-ın karbohidrogenlərlə əlaqəsi olmayan texnologiyalara sərmayə qoyacağını gözləmək olar. Məsələn, söhbət avtomobil sənayesində hidrogen mühərriklərdən gedə bilər".

Hazırda sərmayə sahəsində diqqət mərkəzində yer alan məsələlərdən biri də müştərək şəkildə investisiyalar qoyuluşunu həyata keçirməkdir. Elə bu günlərdə SOCAR-ın Birləşmiş Ərəb Əmirliklərinin "ENOC" şirkəti ilə müxtəlif layihələrə sərmayə yatırımları imkanları müzakirə edilib. Belə ki, SOCAR-ın prezidenti Rövnəq Abdullayev "ENOC" şirkətinin sədr müavini Şeyx Səid Məhəmməd Əl Tayerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

**"ENOC" şirkətinin sədr müavini SOCAR-ın fəaliyyətini daim yaxından izlədiklərini qeyd edib. Görüşdə SOCAR və "ENOC" şirkətləri arasında treydinq üzrə əməkdaşlıq və müxtəlif layihələrə sərmayə yatırımları imkanları, eləcə də perspektivlər müzakirə edilib. Hesab olunur ki, atılan addımlar yaxın tezlikdə Azərbaycanı dünya miqyasında önəmli sərmayədar ölkələrdən biri kimi tanıdacaq.**

*Nahid SALAYEV*

# Avroittifaqın Türkiyəyə sanksiya və dialoqu dayandırmaq qərarı - S-400-lərə görə ABŞ-ın təsiri, ya...

**Məlum olduğu kimi, Avropa İttifaqına üzv ölkələrin xarici işlər nazirləri Türkiyənin Kiprə məxsus xüsusi iqtisadi zonada geoloji kəşfiyyat işləri aparması ilə bağlı bu ölkəyə qarşı sanksiyaları qəbul edib. Belə ki, qərara əsasən, Avropa İttifaqı Şurası ən yüksək səviyyədə Ankara ilə dialoq aparmaqdan imtina edir və Assosiasiya Şurasının iclasını ləğv edib.**

*"Aralıq dənizində çalışacaqlar ki, Türkiyəni sıxışdırsınlar"*

Bundan əlavə, Şura Avropa İnvestisiya Bankına Türkiyədə kredit fəaliyyətinə yenidən baxmağı və Ankaraya maliyyə yardımını azaltmağı məsləhət görüb.

Nazirlər, eyni zamanda, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Mogeriniyə Türkiyəyə qarşı əlavə məhdudlaşdırıcı tədbirlərin hazırlanmasını da məsləhət görüblər. Məlumata görə, Türkiyə tərəfi öz mövqeyini dəyişməsə, Avropa İttifaqı geoloji kəşfiyyat işlərində iştirak edən şirkətlərə və ayrı-ayrı şəxslərə qarşı da məhdudlaşdırıcı tədbirlər qəbul edə bilər.

Göründüyü kimi, Aİ tərəfindən Türkiyəyə qarşı həm sanksiya qəbul olunub, həm də bu ölkə ilə aparılan dialoq dayandırılıb. Bütün bunların baş verməsi təsadüfi deyil. Nəzərə almaq lazımdır ki, son dövrlər Türkiyə-ABŞ münasibətlərində də fikir ayrılıqları yaşanır. ABŞ Türkiyənin Rusiyadan S-400 raket komplekslərini almasını etirazla qarşılayır. O baxımdan maraqlıdır, Aİ-nin Türkiyəyə qarşı sanksiyalar tətbiq etməsində ABŞ-ın rolu, təsiri ola bilərmi?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı:** "Türkiyənin Aralıq dənizi şelfində qaz yataqlarını geoloji kəşfiyyat işləri əsasən beynəlxalq qanunlara əsaslanır. Burada Yunan Kiprin aqressiyasına baxmayaraq, Türkiyənin apardığı işlər Türk Kiprinin maraqlarının qorunmasını da özündə ehtiva edir. Aralıq dənizinin şərq hissəsində böyük qaz yataqları kəşf olunub. ABŞ başda olmaqla, İsrail, Yunanıstan və Misir Türkiyəyə qarşı burada koalisiya yaradıblar. Məqsəd Türkiyəni bu qaz yataqlarından kənar tutmaq və Yunan Kiprinin maraqlarını tam təmin etməkdir. Haqlı olaraq rəsmi Ankaranın siyasəti bu istiqamətdə öz milli təhlükəsizliyinə xidmət edir. Burada qaz yataqlarının müştərək işlənməsini Türkiyə önə çəkir, amma Yunanıstan bununla razı deyil. Artıq Avropa İttifaqının Türkiyəyə qarşı sanksiyalarını irəli sürməsi hesab edirəm ki, Türkiyənin apardığı siyasətə qarşı yönəlib. Həqiqətən də Türkiyənin Rusiyadan idxal etdiyi S-400 raket kompleksləri ABŞ və NATO-nu ciddi narahat edir.

***Məhəmməd Əsədullazadə:** "Bu sanksiyaların arxasında Birləşmiş Ştatların dayandığını istisna etmirəm"*




Çünki regionda vəziyyət Türkiyənin xeyrinə dəyişir və bu ölkənin rolu getdikcə daha da qabarır. Ona görə də bu sanksiyaların arxasında ABŞ-ın dayandığını istisna etmirəm.

İlk növbədə Avropa İttifaqı sanksiyaları tətbiq etməklə, prosesə strat vermiş oldu. Ankarnın Rusiya ilə strateji ortaqlığı yeni proseslərə yol açır. Aralıq dənizində çalışacaqlar ki, Türkiyəni sıxışdırsınlar. Ancaq Türkiyə bu siyasətin qarşısnı mətinliklə alacaq və ona qarşı olan planlar puç olacaq. Qeyd edim ki, Türkiyənin Aralıq dənizində siyasətində sülh və əməkdaşlıq platforması var. Yunanıstan isə bunu görməzdən gəlir. Öz regional aqressiv siyasəti ilə bölgədə destabilizasiyaya yol açır".

***Vidadi ORDAHALLI***

# Türkiyə Şimali Kiprin haqları üçün Avropanın sanksiya qərarını kağız parçası saydı

*Ankara geri çəkilməyəcək, dördüncü türk gəmisi də bölgəyə göndərilir*

**Avropa İttifaqının Türkiyəyə qarşı sanksiya qərarını çox ciddiyə almaq lazım deyil". Baki-xeber.com xəbər verir ki, bunu Şimali Makedoniyada səfərdə olan Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.**




Sputnik-Türkiyə yazır ki, Çavuşoğlu "Avropa İttifaqının Türkiyəyə qarşı sanksiya qərarını çox ciddiyə almaq lazım deyil" deyib.

"Avropa İttifaqının Türkiyəyə qarşı sanksiya qərarını çox ciddiyə almaq lazım deyil. Bizə təsir edəcək şeylər deyil. Avropa İttifaqı hər dəfə mərkəzi banka müdaxilələri pisləyir, ancaq indi öz banklarına göstəriş verir.

Mənasız həmrəylik anlayışı ilə yunan Kipri və Yunanıstanın təzyiqilə belə qərarlar qəbud ediblər. Qəbul etdikləri qərarların həyata keçirilməsinin mümkünsüzlüyünü özləri də bilirlər.

Kipr Respublikasının könlünü almaq üçün verilmiş qərarlardır. Problem Kiprdə türk xalqının ada ətrafında haqlarına zəmanət verilməməsidir. Türkiyəyə qarşı belə qərarlar qəbul edilərsə, biz də bu istiqamətdə fəaliyyətimizi daha da artıracağıq. Aralıq dənizində üç gəmimiz var. Dördüncü gəmini də ən qısa zamanda Aralıq dənizinə göndərəcəyik. Kiprdəki türk xalqının haqqı zəmanət altına alınmayanadək biz oradakı fəaliyyətimizi davam etdirəcəyik", - deyən Çavuşoğlu Yunan Kiprinə də bir mesaj göndərib: "Aİ-ni arxalarına almasınlar, türk tərəfi ilə masaya otursunlar".

Türkiyə Xarici İşlər Nazirliyi də bəyanat yayaraq, Avropa İttifaqının ən yüksək səviyyədə dialoqu dayandırmaq barədə qərarına baxmayaraq, rəsmi Ankaranın Aralıq dənizində karbohidrogenlərin hasilatını davam etdirəcəyini bəyan edib.

Qeyd edilir ki, Türkiyə bundan sonra da öz hüquqlarını və Kipr türklərinin hüquqlarını qorumağa davam edəcək, həmçinin bu aspektdə öz fəaliyyətini aktivləşdirəcək.

Qeyd edək ki, hazırda Kiprə aid xüsusi iqtisadi zonada Türkiyəyə məxsus iki qazma gəmisi - "Fatih" və "Yavuz" var. Yunanıstan və Kipr bunu təxribat adlandırıb. Türkiyə tərəfi hesab edir ki, regiondakı təbii sərvətlərdə haqqı var.

Xatırladaq ki, bu günlərdə Avropa İttifaqına üzv ölkələrin xarici işlər nazirləri Türkiyənin Kiprə məxsus xüsusi iqtisadi zonasında geoloji kəşfiyyat işləri aparması ilə bağlı bu ölkəyə qarşı sanksiyalar qəbul edib. Belə ki, qərara əsasən, Avropa İttifaqı Şurası ən yüksək səviyyədə Ankara ilə dialoq aparmaqdan imtina edir və Assosiasiya Şurasının iclasını ləğv edib.

Bundan əlavə, Şura Avropa İnvestisiya Bankına Türkiyədə kredit fəaliyyətinə yenidən baxmağı və Ankaraya maliyyə yardımını azaltmağı məsləhət görüb.

Nazirlər, eyni zamanda, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Mogeriniyə Türkiyəyə qarşı əlavə məhdudlaşdırıcı tədbirlərin hazırlanmasını da məsləhət görüblər.

**"Focus" nəşri yazır ki, Türkiyə tərəfi mövqeyini dəyişməsə, Avropa İttifaqı geoloji kəşfiyyat işlərində iştirak edən şirkətlərə və ayrı-ayrı şəxslərə qarşı da məhdudlaşdırıcı qərarlar qəbul edə bilər.**

# Venesiya Komissiyası ilə Ermənistan arasında hüquqi islahat mübahisəsi böyüyür - Paşinyanın islahatlarına şübhələr artır...

**Xəbər verdiyimiz kimi, Ermənistanda fəaliyyət göstərən "Doğru yol" adlı təşkilat Venesiya Komissiyasının 119-cu plenar iclasının qəbul etdiyi qərarın surətini mediaya təqdim edib. Cari ilin 21-22 iyununda keçirilən həmin iclasın yekun qərarında Ermənistanla bağlı mühüm müddəaların olduğu üzə çıxıb.**

Yayılan sənəddən görünür ki, Venesiya Komissiyası Ermənistan rəhbərliyinin hazırda fəaliyyətdə olan məhkəmələrlə bağlı qəbul etdiyi məcburi "vettinq" (yoxlama, attestasiya - red.) siyasətini məqbul saymayıb. Bildirilir ki, komissiya üzvləri hakimlərlə bağlı tətbiq edilən "vettinq" siyasəti əvəzinə, həmin sistemdəki nizam-intizamın möhkəmləndirilməsini zəruri sayıblar. Venesiya Komissiyası, həmçinin, "hakim" və "Konstitusiya Məhkəməsinin üzvü" kimi sözlər arasında qoyulan fərqləri də məqbul saymayıb. Həmçinin, Konstitusiya Məhkəməsinin tərkibinin formalaşması prosesini də qənaətbəxş hesab etməyib. Eyni zamanda, hakimiyyət nümayəndələrinin Konstitusiya Məhkəməsinin hakimlərinin işinə etdikləri kobud müdaxilə faktları da kəskin tənqid edilib. Sənədin yekun hissəsində qeyd edilir ki, Ermənistanda baş verən inqilabdan sonra formalaşan və özünü demokratik hesab edən hakimiyyət hələ ki, istiqamətdə heç bir addım atmayıb. Sənəddə, həmçinin, Ermənistanda Konstitusiya Məhkəməsinə seçilən 9 hakimdən 7-sinin legitimliyinin olmadığı ilə bağlı da narahatlıq öz əksini tapıb. Göründüyü kimi, komissiya Paşinyanın "islahat" adı qoyduğu bütün prosesi ifşa edib.

Artıq Venesiya Komissiyasının qəbul etdiyi qərara Ermənistanın rəsmi dairələrinin reaksiyası müşahidə olunmağa başlayıb. Ermənistanın Ədliyyə Nazirliyi bildirib ki, komissiyanın qərarına uyğun olaraq məhkəmə sahəsində islahatları davam etdirmək niyyətləri var. Ancaq rəsmi qurum "vettinq"lə bağlı bildirlən iradı siyasi spekulyasiya predmeti adlandırıb. Qeyd edilir ki, belə hallar başqa ölkələrin də praktikasında mövcuddur və yaxşı nəticə verib. Xüsusilə də hakimlərin gəlir bəyannamələri ilə bağlı müddəanın üzərində duracağını qeyd edən nazirlik bildirir ki, belə addımlar məhkəmələrin şəffaflaşmasına xidmət edəcək. Erməni KİV-i bildirir ki, bu məsələ ilə bağlı Nikol Paşinyanın özəl mövqe bildirəcəyi gözlənir. Məlumatı Ermənistan cəmiyyətinə ilk çatdıran "Doğru yol" təşkilatının sədri, sabiq deputat Siranuş Saakyan isə bildirib ki, hakimiyyət komissiyanın tövsiyələrinə əməl etməyəcəyi təqdirdə, ciddi narazılıqlar yarana bilər. Saakyan deyir ki, komissiya Ermənistana iyulun sonuna kimi vaxt qoyub. Onun sözlərinə görə, hətta tövsiyələrə əməl olunsa belə, onun keyfiyyəti yaxşı olmayacaq. Qurum rəhbəri qeyd edir ki, komissiyanın tövsiyələri nəzərə alınmayacağı təqdirdə, Ermənistanı hamar olmayan yolla addımlamaq gözləyir. Göründüyü kimi, VK tərəfindən Paşinyanın məhkəmə islahatlarına ciddi irad bildirilib, hətta qısa vaxt ərzində bunun aradan qaldırılması tapşırılıb. Gedişatın sonu nə vəd edir?




Ekspert Elşən Mustafayev qəzetimizə bildirdi ki, Venesiya Komissiyasının Ermənistana tövsiyələri ciddidir və konkret faktlara əsaslanıb: "Bilirsiniz ki, Paşinyan hakimiyyətə gələndən sonra onların heç bir rəyinə əhəmiyyət verməyib. Seçkidən tutmuş, məhkəmə islahatlarına qədər Paşinyan böyük saxtakarlıqlara yol verdi. Onun bütün fəaliyyəti hakimiyyətini qanunsuz yolla olsa belə möhkəmlətməyə və keçmiş rəqiblərindən qisas almağa yönəlib. Sübut olunur ki, Ermənistanda "Qarabağ klanı"nın hakimiyyətdən getməsindən sonra aparılan "islahatlar" kosmetik xarakter daşıyıb. Artıq bunu Ermənistan KİV-i belə etiraf edir.

Xatırladaq ki, Nikol Paşinyan may ayında Robert Köçəryanın azad edilməsindən sonra məhkəmələrdə özünün "vettinq" adlandırdığı qanun pozuntularına adı qarışan hakimlərin işdən kənarlaşdırılması və ya məsuliyyətə cəlb edilməsi islahatını başlatdığını bəyan etmişdi.

Ancaq görünən budur ki, bu "islahatlar" biabırçı tərzdə həyata keçirilib. Bunu Ermənistanın Ali Məhkəmə Şurasına seçilən son üzvlərinin adlarından da müşahidə etmək mümkündür. Yeni seçkilərdə İrəvanın ümumi yurisdiksiyasının hakimi Mesrop Makyan və birinci instansiya məhkəməsinin sədri Ruben Vardazaryan qalib gəlib. Sonuncunu Ermənistan KİV-i Serj Sarkisyanın siyasi sifarişlərini icra edən hakim və keçmiş kriminal-oliqarxik sistemin fəal nümunələrindən biri kimi qələmə verir. Bütün bu yerdəyişmələr və təyinatlar Paşinyanın məhkəmə "islahatı" adı altında edilir. Venesiya Komissiyası konkret vaxt qoyub.

Ermənistanın rəsmi dairələrinin açıqlamasında narahatlıq hiss edilir. Sanki "bəzi məsələlərlə razılaşa bilərik, amma bəzilərində israr edəcəyik" kimi mövqe görünür. Hesab edirəm ki, VK ilə münasibətlərin hansı məcrada davam edəcəyi Paşinyanın bu mövzuda verəcəyi açıqlamadan sonra məlum olacaq. İstənilən halda, VK-nın bu prinsipial mövqeyi Paşinyanı güzəştə vadar edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# İranla müharibəni istəməyən kimdir - Tramp, ya ətrafı...

**İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Amerikanın NBC telekanalına müsahibəsində deyib ki, ABŞ Prezidenti Donald Tramp Tehranla müharibə istəmir, lakin onun ətrafı bu mövqeyi bölüşmür, tam əksini istəyir: "Düşünmürəm ki, Prezident Tramp müharibə istəyir, lakin əminəm ki, onun ətrafı buna etiraz etməzdi".**



## *Yeganə Hacıyeva: "Tramp ətrafının təkidlərinə baxmayaraq, İranla bağlı preventiv qərarlar qəbul etməyə çalışacaq"*

O əlavə edib ki, Tramp təzyiq altındadır, lakin ətrafdakıların onun qərarlarına təsir etmək cəhdləri "sonda uğurla nəticələnmir, çünki ağıl üstünlük təşkil edir". "İran böyük, qürurlu ölkədir və biz hərbi hücumlara biganə qalmayacağıq", - deyə Zərif bildirib.

İranın rəsmi şəxsinin bu mövqeyini necə dəyərləndirə bilərik? Doğrudanmı İranla müharibəni Tramp yox, onun ətrafı istəyir?

**Politoloq Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, İranın səsləndirdiyi bu fikirdə həqiqət payı var:** "Tramp hər nə qədər İranı sevməsə də, hələlik ora ilə bağlı konkret addım atmaq fikrində deyil. Tramp Yaxın Şərqlə bağlı risqli addım atan siyasətçi oldu. Qüdsü İsrailin paytaxtı elan etməklə o, ABŞ prezidentlərinin bu mövzu ətrafında spekulyasiya etmələrinə birdəfəlik son qoydu. İran bilir ki, Trampın ətrafında və çox yaxınlığında yəhudi lobbisinin nümayəndələri var. Konkret olaraq onun qızının həyat yoldaşı Kuşner yəhudidir. İran bu amillərdən narahatdır. İkinci məqam isə Trampın ətrafında olan silah sindikatlarıdır. 2016-cı ilin əvvəlində ABŞ-da bir qanun layihəsi müzakirəyə çıxarıldı. Orada bildirilirdi ki, silah istehsalı ilə məşğul olan müəyyən şirkətlər qaynar ocaqlardakı münaqişələrlə bağlı məsələlərə cəlb oluna bilərlər. Söhbət silah satışından gedirdi. Bu da böyük puldur. Yəni İranla silahlı münaqişənin olması həm də onların marağındadır. Burada milyardlarla dollar "yuyula" bilər. Bu da silah sindikatlarının mövqeyini Trampın yanında daha da möhkəmlətdi. Respublikaçılar Partiyasının ABŞ-da hakimiyyətdə olduğu dönəmdə silah tədarükü və təchizatı ilə bağlı hər zaman qanun layihələri qəbul edilib. Hətta ABŞ-ın özündə buna narazılıq edənlər çoxdur. Ötən əsrin 70-ci illərindən sonra bu sanki ötür-ötür oyununa bənzəyir. Demokratlar silahla bağlı qanunları sərtləşdirir, Respublikaçılar gələn kimi bunun əksini edirlər. Bir məsələ də var ki, Tramp seçkiqabağı verdiyi bütün vədləri yerinə yetirməyə çalışan prezidentdir. Çoxuna da əməl edir. İranla da bağlı onun vədi var.

### *"Heç bir halda bu, silahlı müdaxilə olmayacaq"*

Qarşıdan yeni seçkilər gəlir. Bu baxımdan da Tramp ətrafının təkidlərinə baxmayaraq, İranla bağlı preventiv qərarlar qəbul etməyə çalışacaq. Ancaq heç bir halda bu, silahlı müdaxilə olmayacaq.

İran minillik tarixi olan ölkədir. Güclü müdafiə səddinə malikdir. Özü ilə yanaşı, ətrafında olan ölkələrdən ibarət bir şiə hilalı yaratmağı da bacarıb. Tramp ağıllı davranır. Bilir ki, ora nə İraq, nə də Suriyadır. Silahlı müdaxilə etsə, ilişib qala bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan aviasiyasında Qərb qırıcıları da olacaq - "Vaşinqton F-16-ların Bakıya satılmasına razılıq verəcək"

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



**Hərb müstəvisində Azərbaycanın işğalçı Ermənistan üzərində davamlı şəkildə artan üstünlüyü təcavüzkar ölkədə getdikcə daha böyük əndişəyə səbəb olmaqdadır. İrəvan bu fərqi aradan qaldırmaq istiqamətində çoxsaylı cəhdlər göstərsə də, ortada heç bir nəticə yoxdur. Əksinə, hadisələrin inkişaf axarı göstərir ki, Azərbaycan düşmən ölkə ilə müqayisədə hər il daha böyük hərbi üstünlük qazanır.**

Bu hal müxtəlif qoşun növlərinə, o cümlədən hərbi hava qüvvələrinə də aiddir.

Bir müddət əvvəl qeyd olunan səpkidə Azərbaycanla fərqi azaltmaq üçün Ermənistan Rusiyadan Su-30 SM hərbi təyyarələrini almaq niyyətini ortaya qoysa da, hətta bununla bağlı razılıq əldə etdiyi bildirilsə də, hadisələrin real inkişaf axarı İrəvanın arzularının üreyində qalmaqda olduğunu göstərir. Ermənistanın "Jamanak" nəşri yazır ki, Su-30 SM hərbi təyyarələrinin İrəvana gəlməsi böyük sual altındadır. Bunun səbəblərindən biri Moskva-İrəvan münasibətlərinin kəskinləşməsi, digəri isə Ermənistanın maliyyə imkanlarının yoxluğudur. "Jamanak" qeyd edir ki, təyyarələrin alınması üçün Ermənistanın maliyyə krediti ilə, yoxsa nağd pulla ödəniş edəcəyi məlum deyil. Məsələnin qeyri-müəyyən olaraq qalması isə təyyarələrin alınmasını da sual altına alıb: "Burada söhbət "kiçik olmayan" silah növlərindən gedir. Amma Ermənistanın maliyyə imkanları bu silahları almağa imkan vermir. Rusiya isə əvvəlki kimi Ermənistana kredit ayırmaqda maraqlı deyil. Deməli, təyyarələrin ölkəyə çatdırılması da sual altına düşür. Bu durumda Azərbaycan vəziyyətin və ya status-kvonun idarə edilməsi, eləcə də növbəti sabitliyin təmin olunması məsələsində kifayət qədər incə xəbərdarlıq nümayiş etdirir. Status-kvonun idarəetmə mexanizmi hərbi-siyasi və hərbi-texniki balansla birbaşa əlaqəlidir. Bu balansın təmin olunması üçün Ermənistanın hərbi-texniki imkanlarının geniş şəkildə modernləşdirilməsi olduqca vacib məsələdir. Amma buna maliyyə imkanı yetmir. Digər bir diqqətə çatdırılmalı məsələ isə sözün əsl mənasında bu silahların hansı qiymətə başa gələcəyidir. Ermənistan üçün bunlar ciddi problemdir".

Amma Ermənistandan fərqli olaraq, Rusiya Azərbaycana ən müasir təyyarələri böyük həvəslə satmağa hazır olduğunu bildirir və ölkəmizin buna maliyyə imkanları da çatır. Elə bu günlərdə Rusiyanın Birləşmiş Aviatikinti Korporasiyası bildirib ki, Moskva Azərbaycana istənilən növ döyüş təyyarələrinin satışına hazırdır: "Biz indiyə kimi keçirilən görüşlərdə və bu gün mövcud layihələrimiz barədə Azərbaycan tərəfini məlumatlandırdıq". Korporasiya nümayəndələri bildiriblər ki, ötən illərdə Azərbaycana Su-30SM və MiQ-35 təyyarələri təklif olunsa da, Azərbaycan tərəfi seçim etməyib. Bir neçə gün əvvəl Rusiyada baş tutan "Army-2019" Forumunda isə Azərbaycana təklif olunan yenilənmiş "İl-76MD-90A" hərbi nəqliyyat, Su-34 və Su-35 döyüş təyyarələrinin təqdimatı keçirilib. Rusiya tərəfi adıçəkilən təyyarələrin Azərbaycana ixracı üçün danışıqlara hazır olduğunu bəyan edib. Rusiyalı hərbi ekspert Sergey Suvorov hazırda Azərbaycanla Rusiya arasındakı hərbi-texniki əməkdaşlığın uğurla davam etdirildiyini bildirib: "Azərbaycan həmişə Rusiyanın strateji tərəfdaşı olub və bu cür də qalır. Bu gün Bakı ilə Moskva olduqca yaxşı və sıx əlaqələrə malikdir. Ümid edirəm ki, bizim Azərbaycanla qarşılıqlı faydalı münasibətlərimiz gələcəkdə də davam edəcək və əhatə dairəsi genişlənəcək".

Rusiyanın Azərbaycana yeni silahlar, xüsusən də çoxhədəfli, dördüncü nəsil Su-35 qırıcı təyyarələri verməsinin mümkünlüyünə də toxunan Suvorov gələcəkdə belə bir müqavilənin imzalanmasını istisna etməyib. Onun fikrincə, Azərbaycana yeni nəsil növbəti müasir silahların satışı tamamilə mümkündür: "Əgər biz Su-35 təyyarələrini digər ölkələrə sata biliriksə, onda niyə də Azərbaycana satmayaq?".

Qeyd edək ki, ordunun digər növləri ilə yanaşı hərbi aviasiyanın gücləndirilməsi də rəsmi Bakının əsas prioritetlərindən biri sayılır. Elə yeni döyüş təyyarələrinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının (PUA) alınması, ölkədə PUA istehsalının yaradılması, aviaparka daxil olan təyyarələrin və helikopterlərin modernləşdirilməsi bunun real təsdiqidir. Bundan əlavə, hərbi aerodromların yenidən qurulması, milli kadrlarla komplektləşdirilmə, kadrların bilik və bacarıqlarının artırılması nəticəsində Azərbaycan hərbi aviasiya imkanlarına görə Cənubi Qafqaz və MDB məkanında ön yerlərə yüksəlib. Azərbaycan pilotları uçuş saatlarına görə postsovet məkanında ilk yerdə qərarlaşmaqla yanaşı, keçmiş Sovet və NATO ölkələrində istifadə edilən uçuş aparatlarını idarə etməyi bacaran yeganə kadrlar hesab olunur.

Bundan başqa, belə görünür ki, yaxın tezlikdə Azərbaycan hərbi aviasiya arsenalına yenə Ermənistanda olmayan yeni döyüş təyyarələri də daxil edə bilər. Bunu rusiyalı hərbi politoloq Pavel Felqenhauer də təsdiq edir. O bu xüsusda bildirir: "Azərbaycanın böyük imkanları var və o, istədiyi silahı əldə edir. Ermənistana isə Rusiyadan başqa heç bir ölkə kreditlə silah verməz. Azərbaycan, misal üçün, Türkiyədən F-16 döyüş təyyarələri ala bilər. Bu təyyarələri Türkiyə və ABŞ birgə istehsal edir, o cümlədən ixrac edirlər. Təbii ki, bu təyyarələrin Azərbaycana satılması üçün ABŞ-ın razılığı olmalıdır. Düşünürəm ki, Vaşinqton F-16-ların Azərbaycana satılmasına razılıq verəcək". Politoloq bildirib ki, Azərbaycan Rusiyadan da döyüş təyyarələri, elə Su-30SM-ləri ala bilər: "Moskva Bakının belə bir istəyini dərhal yerinə yetirər. Hətta Azərbaycana birbaşa zavod istehsalı olan təyyarələr satılar". Belə vəziyyətdə daha bir maraqlı açıqlama isə hərbi ekspert Aleksandr Şatrovskidən gəlib. O, Azərbaycan ordusunun ixtiyarında F-16 döyüş təyyarələri ilə yanaşı, Qərbin digər mühüm qırıcısı sayılan F-35-lərin də ola biləcəyini istisna etmir. Onun sözlərinə görə, prezident Rəcəb Tayyip Ərdoğan amerikalı həmkarı Donald Trampla razılaşsa, o zaman F-35 proqramına Azərbaycan da qoşula bilər.

Aleksandr Şatrovski məsələ ilə bağlı "axar" portalına deyib: " Türkiyə bu proqrama qayıtsa, o zaman Bakı avtomatik olaraq ona qoşulacaq. Mənim buna heç bir şübhəm yoxdur. F-35 məsələsinin uğursuzluqla nəticələnməsi halında isə Türkiyə ehtiyacını rus təyyarələri ilə ödəyəcək. Prinsipcə hər iki halda alınacaq təyyarələr qarşıya qoyulmuş tapşırıqların öhdəsindən gələ biləcək. F-35 hər zaman qırıcı rolunda çıxış edən F-22-lərlə müşayiət olunur. Bu mənada onlar möhtəşəmdir. Onlar həmişə tam tərkibdə tapşırığa çıxır. F-35-in çatışmayan cəhəti manevr imkanlarının aşağı olmasıdır, üstünlüyü isə görünməz olmasıdır. Su-57-lərdə isə vəziyyət əksinədir. Manevr imkanları genişdir, lakin görünməzliyi zəifdir. Elə Bakı da məhz bu kriteriyalar əsasında hərbi təyyarə seçimi aparacaq". Onun sözlərinə görə, Qarabağın hərbi səhnəsində tapşırıqları icra etmək üçün "Su" tipli təyyarələr kifayət qədər silahlanmaya malikdir. Uzunmüddətli perspektivdə müəyyən geosiyasi vəziyyət yaranacağı halda Bakının ABŞ silahları alması da tamamilə mümkündür.

Məşhur "907-ci Düzəliş" məsələsinə də toxunan ekspert sözügedən düzəlişin ləğvinin də mümkün olduğunu qeyd edib: "Hazırda bu düzəlişi aradan qaldırmaq çətindir, çünki Konqres hazırkı prezidentə müxalif mövqedə dayanıb. Lakin gələcəkdə hər şey mümkündür. Bu düzəlişlər qəbul edildiyi kimi də ləğv edilir".

Erməni politoloq Suren Sarkisyan isə bildirir ki, Bakının istər Türkiyə, istərsə də ABŞ-ın özündən hərbi texnika almasında hansısa problem yoxdur. O, Azərbaycanın artıq Türkiyədən çoxsaylı müasir hərbi texnika aldığını bildirir: "Azərbaycan ABŞ-dan da belə texnika ala bilər. Özü də Con Boltonun regiona səfəri zamanı ABŞ bu prosesdə maraqlı olduğunu açıq bəyan etdi. Ermənistanla müqayisədə Azərbaycanın ABŞ-la əlaqələri bir neçə dəfə daha çoxdur". Erməni politoloq müxtəlif mənbələrdən əldə etdiyi məlumatlara əsasən bildirib ki, Azərbaycan silah-sursat əldə edilməsi istiqamətində fəal iş aparır və ABŞ-dan mümkün olan hər şeyi əldə etmək niyyətindədir, hətta mülki təyyarə alıb onu hərbiləşdirmək iqtidarındadır. Qeyd edək ki, Azərbaycan artıq Amerika istehsalı olan 4 hərbi helikopter alıb. Həmin helikopterlər də ötən il keçirilən hərbi paradlarda nümayiş olunub.

Bundan əlavə, Azərbaycan digər Qərb ölkələrindən də silah alır. Məsələn, ölkəmiz artıq İtaliyadan 10 ədəd hərbi məqsədlər üçün istifadə olunan, reaktiv təlim-məşq təyyarəsi olan "M-346 Master" alıb. Azərbaycan daha 15 ədəd "M-346 Master" təlim-döyüş təyyarəsi sifariş verib. "M-346 Master" İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan hərbi məqsədlər üçün istifadə olunan reaktiv təlim-məşq təyyarəsidir. Digər tərəfdən o da məlumdur ki, Azərbaycan Pakistandan da yeni nəsil qırıcılar almağı düşünür. Artıq Pakistanla Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq zaman keçdikcə daha da dərinləşir və möhkəmlənir. Bu fonda Azərbaycan Çin və Pakistanın birgə istehsalı olan dördüncü nəsil "JF-17 Thunder" çoxməqsədli qırıcı təyyarəsini əldə etmək niyyətini dilə gətirib. Xatırladaq ki, "JF-17 Thunder" hava kəşfiyyatı aparmağa, yer hədəflərinə qarşı sarsıdıcı hücum həyata keçirməyə və qarşı tərəfin hava hədəflərini tutmaq, yaxud məhv etməyə qadirdir. Bütün bunlar Azərbaycanın işğalçı Ermənistan üzərində hərbi üstünlüyünü durmadan artırır və Dağlıq Qarabağ münaqişəsi hərbi müstəviyə keçəcəyi təqdirdə nəticələrə birbaşa təsir edir. Bu mənada faktdır ki, Azərbaycanın qısa müddət ərzində düşmən ordusunu darmadağın edəcəyinə dair düşmən tərəfə artıq beynəlxalq miqyasda çoxsaylı xəbərdarlıqlar edilib. Nəticə çıxarmaq isə Ermənistana qalıb.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Qeyri-neft məhsullarının ixrac həcmini sürətlə artıran Azərbaycan üçün bu gün ən vacib məqamlardan biri də yeni bazarların tapılmasıdır. Bu istiqamətdə hazırda ölkəmizin diqqətini daha çox Avropa, xüsusən də Mərkəzi Avropa bazarları cəlb edir. Belə görünür ki, yaxın tezlikdə Azərbaycan Avropa bazarlarına təkcə enerji yox, həm də qeyri-neft məhsulları ixrac edəcək.**

# Avropa bazarlarını təmin etməkdə Azərbaycanın daha bir tranzit mövqeyi tam reallaşma ərəfəsində...




Xüsusən də başa çatmaq üzrə olan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi bu istiqamətdə ölkəmizə əlavə imkanlar yaradır.

Xatırladaq ki, artıq Astara (Azərbaycan) - Astara (İran) dəmir yolu xəttinin çəkilişi nəticəsində Rusiya ilə İran arasında ölkəmiz üzərindən dəmir yolu vasitəsilə nəqliyyat əlaqəsi yaranıb. Bu yol Qəzvin-Rəşt-Astara dəmir yolunun davamıdır. Hələlik Astara (Azərbaycan) - Astara(İran) dəmir yolu xəti ilə Rusiya yalnız İranla idxal-ixrac əməliyyatlarını həyata keçirə bilir. Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) yolu tam hazır olduqdan sonra isə Azərbaycanın, eləcə də Rusiyanın Hindistan və Fars körfəzi ölkələri ilə də əlaqələri yaranacaq. Qeyd edək ki, dəmir yolu "Şimal-Cənub" dəhlizinin yalnız bir seqmentidir. Bu marşrut ona görə dəhliz adlanır ki, bura dəmir yolları ilə yanaşı avtomobil və dəniz yolları da daxildir. Hər üç seqmentin işə düşməsi Azərbaycan üçün faydalıdır, çünki ölkəmiz bu yolların üzərindədir. Yəni dəhlizə daxil olan avtomobil, dəniz və dəmir yolları Azərbaycandan keçir. Bakı Beynəlxalq Ticarət Limanının tikilib istifadəyə verilməsi, Ələt-Astara avtomobil yolunun salınması və Astara (Azərbaycan) - Astara (İran) dəmir yolu xəttinin inşasına nail olması isə ölkəmizə əlavə üstünlüklər qazandırır. Bunun nəticəsidir ki, Azərbaycan yalnız dəmir yolu vasitəsilə daşınan tranzitdən deyil, həmçinin avtomobil və dəniz yolları ilə daşınan yüklərdən də tranzit gəlirlər əldə edir.

Dəhlizin yükaşırma qabiliyyətinə və həcminə gəldikdə, xatırladaq ki, marşrut üzrə ildə 10 milyon ton yük daşına bilər. Ekspertlər bildirir ki, yüklərin Azərbaycan ərazisindən tranzit daşınmasına qlobal xarakter daşıyan strateji məsələ kimi baxmaq lazımdır. Belə ki, tranzit ölkəyə çevrilmək ölkənin geosiyasi əhəmiyyəti ilə yanaşı, dünya iqtisadiyyatındakı rolunu da artırır.

Lakin Azərbaycan üçün "Şimal-Cənub" dəhlizinin tam formalaşması digər səbəblərə görə olduqca əhəmiyyətlidir. Birincisi, dəhliz tam işə düşdükdən sonra Azərbaycan Fars Körfəzi ölkələri ilə yanaşı, Hind okeanı hövzəsindəki dövlətlərlə də iqtisadi və ticarət əlaqələrinə malik olacaq. Yuxarıda qeyd olunduğu kimi, Avropa bazarları da "Şimal-Cənub" vasitəsilə Azərbaycanın üzünə açılacaq. Məsələn, Polşa rəhbərliyi bu dəhlizə qoşulmaqda maraqlı olduqlarını bildirir. Rumıniya da bu istiqamətdə fəal addım atır. Real vəziyyətin təhlili göstərir ki, hazırda Rumıniya özünün Konstansa limanının Xəzər və Qara dənizi birləşdirəcək nəqliyyat-tranzit dəhlizinin əsas və aparıcı halqalarından birinə çevrilməsi üçün bütün imkanlarını işə salıb. Konstansa limanı Türkmənistanın Türkmənbaşı limanından, eləcə də Qazaxıstan və Özbəkistandan, digər Mərkəzi Asiya ölkələrindən Avropa bazarına göndəriləcək yüklərin əsas məntəqəsinə çevrilə bilər. Daşınma marşrutu xüsusi konteynerlərlə yüklərin Xəzər dənizi vasitəsilə Bakıya, oradan dəmir yolu vasitəsilə Batumi və yaxud Potiyə, buradan isə dənizlə Rumıniyaya göndərilməsini nəzərdə tutur. Digər Avropa ölkələri də "Şimal-Cənub"a eyni marağı ifadə edir. Asiyada da dəhlizə maraq artır. Burada layihədə əsas iştirakçılardan birinə çevrilməkdə olan Hindistanla yanaşı, Sinqapur və Malayziya da "Şimal-Cənub" dəhlizinə maraq göstərir. Bu ölkələrin böyüyən iqtisadiyyatı və Avropa dövlətləri ilə ticarət əlaqələrinin genişlənməsi nəqliyyat probleminin həllini tələb edir. "Şimal-Cənub" dəhlizi bu xüsusda həmin ölkələrə böyük imkanlar vəd edir.

"Şimal-Cənub", ümuimiyyətlə, Azərbaycan, İran və Rusiya vasitəsilə Şimali Avropa ilə Cənubi Asiyanı birləşdirəcək. Yeni İrandan Rusiya və Baltik limanllarına uzanan bu nəqliyyat dəhlizi ümumilikdə Fars körfəzi ilə Hindistanı birləşdirəcək. Rusiya iqtisadiyyatçısı Aleksandr Karavayev vurğulayır ki, Bakı, Tehran və Moskva arasında "Şimal-Cənub"la bağlı əməkdaşlığın inkişafı ciddi sənaye potensialı olan bu layihənin əsas elementidir. Onun sözlərinə görə, bu istiqamətdə işlərin gedişi hər üç ölkəyə tranzitdən böyük gəlir əldə etmək, eyni zamanda öz məhsullarını asanlıqla yeni bazarlara çıxarmaq imkanı verir. Qeyd edək ki, "Şimal-Cənub" layihəsi Rusiya, İran və Hindistan arasında 2000-ci il sentyabrın 12-də imzalanmış hökumətlərarası saziş əsasında həyata keçirilir. Azərbaycan sazişə 2005-ci ildə qoşulub. Saziş, ümumilikdə 12 ölkə - Azərbaycan, Belarus, Bolqarıstan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman, Rusiya, Tacikistan, Türkiyə, Ukrayna tərəfindən ratifikasiya edilib. Nəqliyyat dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirmək üçün nəzərdə tutulub.

***Tahir TAĞIYEV***

# Mərkəzi Bank inflyasiyanı 4,2 faiz həddə saxlaya biləcəkmi - mövsümi aqrar məhsullar belə bahalaşdısa...

**Azərbaycan Mərkəzi Bankı (AMB) hesab edir ki, bu il inflyasiya elan edilmiş çərçivədə, yəni 4,2 faiz səviyyəsində qalacaq. Mərkəzi Bank inflyasiyanın sözügedən həddə olacağını müəyyən arqumentlərlə əsaslandırır. Belə ki, Mərkəzi Bankın hesablamalarına görə, qısamüddətli inflyasiya risqlərinin balanslaşdırılmasına imkan verən sabitləşdirici amillər qalmaqdadır.**

*"Bu həm də süni qiymət artımına qarşı mübarizənin hansı səviyyədə olmasından asılı olacaq"*

***Vüqar Bayramov:*** *"İnflyasiya proqnozlaşdırıldığından daha çox olacaq"*

Bununla bağlı bank tərəfindən qeyd olunub ki, inflyasiyanın sabitləşməsinə təsir göstərən əsas amillər sırasına əlverişli beynəlxalq konyunktur, profisitli tədiyyə balansı, balanslaşdırılmış valyuta bazarı və antiinflyasiya xarakterli monetar şərtlər daxildir.

**Bütün bunlardan çıxış edərək MB hesab edir ki, bu il inflyasiya 4,2 faiz səviyyəsində qalacaq. Ancaq nəzərə alsaq ki, bir sıra məhsulların qiymətində bahalaşma var, o zaman inflyasiya səviyyəsinin il ərzində göstərilən həddə olacağı real görünmür.**

Məsələn, mövsüm dövrü olmasına rəğmən, bir sıra kənd təsərrüfatı məhsullarının qiyməti yüksək olaraq qalmaqdadır. Meyvə-tərəvəzin qiyməti mövsümə xas olmayan dərəcədə bahadır. Bununla belə, bir sıra kənd təsərrüfatı məhsulları üzrə paytaxt bazarı ilə rayonlardakı qiymət arasında bəzən 2 dəfəyə yaxın fərq var. Bakıda məhsulları daha baha təklif edirlər.

Bütün bunların fonunda, bu il inflyasiyanın 4,2 faiz səviyyəsində qalacağı nə dərəcədə realdır?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, inflyasiya göstərilən rəqəmdən yüksək olacaq:** "İnflyasiya proqnozlaşdırıldığından daha çox olacaq. Ancaq birrəqəmli olacaq. Çünki nəticə etibarilə daxildə məhsula tələbat artacaq. Artımlarla əlaqədar alıcılıq qabiliyyəti yüksələcək. Bu da yeni məhsulların qiymətinə birbaşa təsir göstərir. Eləcə də nəzərə almaq lazımdır ki, bir sıra hallarda,





xüsusən də əməkhaqqı artan zaman sahibkarlar süni şəkildə qiymət artımlarına gedirlər. Bu da istehlak bazarında qiymətlərə təsir edən əsas faktorlardan biridir. Bizim qiymətləndirməmiz ondan ibarətdir ki, istehlak bazarında qiymətlərə təsir edən amillər özünü göstərəcək. Ancaq biz birrəqəmli inflyasiya proqnozlaşdırırıq. Yəni Mərkəzi Bankın proqnozlaşdırdığından daha yüksək inflyasiya olacaq. Ancaq nəticə etibarilə manatın məzənnəsi indiki səviyyədə olarsa və xarici şoklar baş verməzsə, o zaman inflyasiya səviyyəsini birrəqəmli həddə saxlamaq mümkün olacaq. Lakin, bütün hallarda, ölkədə inflyasiya MB-nin proqnozlaşdırdığından daha yüksək olacaq.

Bu həm də süni qiymət artımına qarşı mübarizənin hansı səviyyədə olmasından asılı olacaq.

**Bizim hesablamamıza görə, digər müdaxilələr baş verməzsə, mövcud şərtlər daxilində inflyasiya səviyyəsi 8 faiz ətrafında dəyişəcək. Yox, xarici şoklar baş verərsə, o zaman inflyasiya daha yüksək və ikirəqəmli olacaq".**

***Vidadi ORDAHALLI***

# Cəmi 5 ayda Azərbaycanın xarici ticarəti 14 milyard dolları keçdi - müsbət saldo 2,4 milyard...

**Bu ilin yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsi 14 milyard 74,2 milyon dollar, o cümlədən, ixracın dəyəri 8 milyard 240 milyon dollar, idxalın dəyəri 5 milyard 834,2 milyon dollar təşkil edib. Nəticədə 2 milyard 405,8 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.**



***Aydın Hüseynov:*** *"İqtisadi inkişaf ticarət dövriyyəsində müsbət saldo ilə müşayiət olunur"*

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən ilin eyni ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 16,5 faiz, o cümlədən, idxal 51,3 faiz, ixrac 0,1 faiz artıb. Real ifadədə isə dövriyyə 6,8 faiz, o cümlədən, idxal 20,4 faiz, ixrac 0,4 faiz çoxalıb.

O da məlum olub ki, ixracın 29,7 faizini İtaliyaya, 11,4 faizini Türkiyəyə, 7 faizini Çinə, 5,6 faizini Hindistana, 5,5 faizini Almaniyaya, 5,2 faizini İsrailə, 5 faizini İspaniyaya, 3,9 faizini Çexiyaya, 3,4 faizini Gürcüstana, 3,2 faizini Rusiyaya, 3 faizini Fransaya, 2,5 faizini Portuqaliyaya, 14,6 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 14,2 faizi İsveçrə, 14 faizi Rusiya, 9,7 faizi Türkiyə, 8,3 faizi Çin, 6,6 faizi ABŞ, 4,8 faizi Almaniya, 4,6 faizi İran, 3,6 faizi Kanada, 3,5 faizi Avstraliya, 3,1 faizi Ukrayna, 2,7 faizi İtaliya, 2,1 faizi Fransa, 2 faizi Qazaxıstan, 20,8 faizi isə digər ölkələrlə aparılmış idxal əməliyyatlarının payına düşüb.

Görünən odur ki, təkcə bu ilin 5 ayında müsbət saldo əhəmiyyətli dərəcədə artıb. Növbəti aylarda artım daha böyük olacaq. Ümumilikdə, ticarət dövriyyəsindəki bu göstəricini ekspertlər necə dəyərləndirirlər?

*"Bu həm də onu göstərir ki, getdikcə iqtisadiyyatda qeyri-neft sektorunun ümumdaxili məhsulda çəkisi artır"*

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, qeydə alınan artım Azərbaycan iqtisadiyyatının dinamik inkişafından xəbər verir:** "İqtisadi inkişaf ticarət dövriyyəsində müsbət saldo ilə müşayiət olunur. Bu isə birinci növbədə ölkədəki iqtisadi inkişafla və ən başlıcası, ixracın artması ilə əlaqədardır. Bu onu göstərir ki, müsbət saldo qeydə alınıbsa, deməli, bu, valyuta ehtiyatlarına da yaxşı təsir göstərir. Qeydə alınan bu göstəricilər ölkədə iqtisadi inkişaf üçün çox mühüm amillərdən biridir. Başqa bir tərəfdən bu onu göstərir ki, artıq Azərbaycan getdikcə cari tələbatın ödənilməsi istiqamətində çox böyük addımlar atır. Artıq biz dünya bazarında daha çox məhsulla iştirak edirik. Daha çox ixracyönümlü, rəqabətqabiliyyətli məhsullar təklif edirik.

Bu isə ölkədə həyata keçirilən iqtisadi strategiyanın çox düzgün şəkildə həyata keçirilməsini göstərir. Getdikcə ölkədə qeyri-neft sektoru inkişaf edir. Nəticədə iqtisadiyyatda belə önəmli nəticələr qeydə alınır. Bu həm də onu göstərir ki, getdikcə iqtisadiyyatda qeyri-neft sektorunun ümumdaxili məhsulda çəkisi artır. Bu isə Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi strategiyanın uğurla həyata keçirilməsinin bir nümunəsidir".

***Vidadi ORDAHALLI***

Ermənistan dünyada əhalinin sayına görə ən çox zibil toplanan 10 ölkə sırasına daxildir. "USA Today"ın verdiyi məlumata görə, bu göstəricilər üçün Dünya Bankının iri zibil toplayıcıları barədə qlobal informasiya bazası əsas götürülüb.

# Azərbaycan hansı nüfuzlu beynəlxalq onluqlarda, beşliklərdə, Ermənistan hansı onluqda - "zibillikdə"...



O da məlum olub ki, birinci yeri Kanada tutub. 2017-ci il göstəricilərinə görə, ölkənin hər bir sakininə 36 min ton zibil düşür. İkinci yerdə Bolqarıstan gəlir. Burada hər bir sakinə 26,7 ton tullantı düşür. Üçüncü yerdə isə ABŞ gəlir. Orada hər sakinə 26 ton zibil düşür. Sonrakı yerlər belə gəlir: Estoniya adambaşına 23,5 ton, Finlandiya adambaşına 16,6 ton, Ermənistan adambaşına 16,3 ton, İsveç adambaşına 16,2 ton, Lüksemburq adambaşına 11,8 ton, Ukrayna adambaşına 10,6 ton, Serbiya adambaşına 8,9 ton.

Bu nəyi göstərir? Bu onu göstərir ki, Ermənistan ancaq zibil toplanmasına dair onluqlarda yer ala bilər. Digər parametrlərə görə Ermənistan ön mövqelərdə ola bilməz. Söhbət müsbət iqtisadi və digər göstəricilərdən gedir. Müqayisə üçün qeyd edək ki, Azərbaycan zaman-zaman dünyanın bir sıra nüfuzlu reytinq cədvəllərində ilk onluqda, 20-likdə yer alır. Dəfələrlə Azərbaycan bu göstəricilərə görə fərqlənib. Ermənistan isə bu cür reytinq cədvəllərində ön sırada yer almayıb. Ermənistan, olsa-olsa, zibil toplanmasında önə keçib. O baxımdan, yaranan bu vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

## Seyid Camal Əzimbəyli: "Ermənistanın yalnız zibilə görə onluqda yer alması hardasa məntiqlidir"

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Ermənistanın yalnız zibilə görə onluqda yer alması hardasa məntiqlidir:** "O mənada ki, Ermənistana yalnız zibil yaraşır. Çünki ermənilər harada olurlarsa, öz zibil xislətlərini büruzə verirlər. Bu, məsələnin bir tərəfi. Məsələnin digər tərəfinə gəldikdə isə, Ermənistan heç bir göstəriciyə - nə iqtisadi, nə humanitar-mədəni, nə də digər parametrlərə görə Azərbaycanla müqayisə oluna bilməz.

## "Bu ölkə heç bir göstəriciyə görə Azərbaycanla müqayisə oluna bilməz"

Azərbaycan illərdir bir sıra beynəlxalq tədbirlərə evsahibliyi edir. Azərbaycan regionda həyata keçirilən enerji və nəqliyyat layihələrinin ərsəyə gətirilməsində aparıcı rol oynayır. Azərbaycan "ASAN xidmət" brendini ortaya qoyub. Ölkəmiz iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı sistemli islahatlar həyata keçirir. Ermənistan nə əldə edib? Hələ elə bir mütərəqqi sahə yoxdur ki, Ermənistan orada ön sırada yer alsın. Bütün bunlar işğalçı Ermənistanın nə qədər geri qalmış ölkə olduğunu açıq şəkildə göstərir".

*Vidadi ORDAHALLI*

---

**"At igidin qardaşıdır" deyimi əsrlərdir öz etibarlılığını qoruyan bir məfhumdur. Azərbaycan qəhrəmanlarının sədaqətli yoldaşı olan atların hər biri öz adları ilə tarixdə yaşayır. Nəinki Azərbaycan qəhrəmanlarının, şahlarının, eləcə də dünyanın ünlü fatehlərinin atlarının adı da tarixləşib.**

# Dünyaca məşhur Qarabağ atlarına doğru adlar verə bilirikmi?



*"Bu il doğulan qulunlardan birinə Qırat, o birinə isə Dürat adını vermişəm"*

Azərbaycanda tarixən bir neçə növ at cinsi yetişdirilib. Bu at növlərinin bütün dünyada məşhur olanı isə Qarabağ atlarıdır. Azərbaycan Respublikasında milli at cinsi olan Qarabağ atlarının şan-şöhrəti bütün dünyanı dolaşır. Məlum olduğu kimi, Qarabağ atının əsas yayıldığı məkan Azərbaycanın Qarabağ bölgəsi olub və ən yaxşı atlar Şuşa, Ağdam və bu rayonlara yaxın ərazilərdə yayılıb. Tarixən Azərbaycanda Qarabağ atlarının "Maymun" (Xoşbəxt), "Qarnıyırtıq" və "Əlyetməz", "Ceyran" (Gülgün) kimi növlərinin yetişdirilməsinə daha çox üstünlük verilib. "Sərdar", "Sultan", "Şah", "Ağalar", "Divar" və s. adlı Qarabağ atları Qarabağ xanlığı dövründə də çox məşhur olub. "Xan", "Zaman", "Sarvan", "Qar-qar" kimi atlar da Qarabağ atının əbədi şan-şöhrətinin nişanəsidir.

Tarixən bütün dünyada fatehlər, qəhrəmanlar öz atlarına ad veriblər. Məsələn, Koroğlu Qırat, Dürat, Qaçaq Nəbi Bozat, Giziroğlu Mustafa bəy Alapaça, Həzrəti Əli Düldül, Makedoniyalı İsgəndər Busefal adlarını verdikləri atları tarixə çeviriblər.

Bu gün isə Azərbaycanda Qarabağ atlarına bəzən çox mürəkkəb, uzun adlar verilir. Qarabağ atlarına verilən adlardan biri Eyvazxanbəylidir. Qarabağ atına bu adın verilməsi 1949-cu ildə Ağdam rayonunun Eyvazxanbəyli kəndində atçılıq zavodu yaradılması ilə bağlıdır. Ancaq at adının bu qədər uzun olması bir qədər qəlizlik yaradır, həm də belə çətin adı yadda saxlamaq da müşkül məsələyə çevrilir.

Hazırda Qarabağ atlarına hansı adlar verilir? Onların adları düzgün seçilirmi?

**"Qarabağ Atçılıq Zavodu" MMC-nin direktoru Maarif Hüseynov "Bakı-Xəbər"ə bildirdi ki, qulunlar doğulduqdan sonra onlara adlar verilir və bu adlar sənədləşdirilir.** 2019-cu ildə "Qarabağ Atçılıq Zavodu"nda 61 baş qulunun doğulduğunu deyən M.Hüseynovun sözlərinə görə, qulunlara ad verilərkən onların rəngi, çəkisi, hərəkəti və sair nəzərə alınır. Zavodda doğulan bütün qulunlara özünün ad verdiyini deyən M.Hüseynovun sözlərinə görə, ad seçilərkən qədim adlarla yanaşı, müasir adlara da yer verilir. Bəzi qulunlara populyar olan xarici adların da qoyulduğunu deyən müsahibimizin sözlərinə görə, dünyada 265 cins at var ki, onun da 2-si Azərbaycandadır. Bunlardan biri Qarabağ və Dilboz at cinsləri olduğunu deyən M.Hüseynov yeni struktur yarandıqdan sonra doğulan qulunların sayı çoxaldı. Kənd Təsərrüfatı Nazirliyindən dedilər ki, qulunlara ən gözəl adları verin. Bəzən elə adlar qoyulurdu ki, onun mənası yaxşı olmurdu. Mən sonra yeni doğulan qulunlara gözəl kənd, şəhər, dağ, çay, maşın adları qoyuram. Qulunlara Amaliya, Tolya, Amaci kimi adlar da qoymuşam.

## Maarif Hüseynov: "Çalışıram yeni doğulan qulunlara elə adlar verim ki, bu həm onların rənginə, xasiyyətinə uyğun olsun, həm də çox mürəkkəb olmasın"

## "Atlara milli adların verilməsi daha düzgündür"

bildirdi ki, bu gün atçılıq zavodunda "Qarqar", "Mercedes", "Sevimli", "Şan" və hətta adı "Spiçka" olan atlar da var. "Əvvəlki dövrlərdə belə bir qayda var idi ki, doğulan qulunlara analarının adlarının baş hərfi ilə başlanan adlar qoyulurdu. Tutalım, ananın adı Alagözdürsə, mütləq qulunun da adı həmin hərflə başlamalı idi. Amma Bu il 61 baş qulunumuz olub. Onların hamısının adını doğulduqdan iki-üç gün sonra vermişəm və adları damazlıqların bəslənmə jurnalında qeyd olunub. Qoşqar, Arpaçay, Sarıgül, Qızılgül, Bozat adları daşıyan qulunlarımız da var. Bir də qulunlara ad qoyularkən onların göstərdiyi ilk hərəkətləri də nəzərə alıram. Doğulan qulunlardan birinə Lovğa adı qoymuşam. Bütün qulunların adını mən qoyuram. Bu il doğulan qulunlardan birinə Qırat, o birinə isə Dürat adını vermişəm. Eləcə də "Qarabağ Atçılıq Zavodu"ndan dünyanın müxtəlif ölkələrinə gedən atlara da mən ad vermişəm. Ata bircə dəfə ad qoyulur, o da qulun vaxtı. Ad verilir, çəkisi, rəngi müəyyənləşdirilir və invertarlaşdırılır. Bu sənəd qulunların "şəxsiyyət vəsiqəsidir".

**M.Hüseynov qeyd etdi ki, Qarabağ atlarına qoyulan adların arasında milli adlar üstünlük təşkil edir. Bununla həm tarixi adların yaşadılıdığını deyən M.Hüseynov hesab edir ki, həm də qulunlara verilən adların sadələyi nəzərə alınır: "Çalışıram yeni doğulan qulunlara elə adlar verim ki, bu həm onların rənginə, xasiyyətinə uyğun olsun, həm də çox mürəkkəb olmasın. Atlara milli adların verilməsi daha düzgündür" - deyə M.Hüseynov qeyd etdi.**

*İradə SARIYEVA*

# Bakıda restoranlar bir-birinin ardınca mərasim evlərinə çevrilir - restoran biznesinin çökməsi, ya...

**Son dövrlər paytaxtda fəaliyyət göstərən restoran və şadlıq evlərinin xeyli hissəsi öz işini başqa istiqamətdə qurmağa başlayıb. Belə ki, şadlıq evləri və restoranlar artıq öz profilinə uyğun deyil, mərasim evləri kimi mövcudluqlarını qoruyurlar. Bir vaxtlar toy-düyün səsi ucalan toyxanalardan indi Quran ayələri, Yasin, ağlaşma sədaları eşidilir.**



*Fatimə Hacıbəyli: "...bu, sırf sosial sifarişdir"*

*Şahin Hacıyev: "Restoran sahibləri vaxtilə böyük xərc çəkib tikdirdiyi binanı saxlamaq, ondan qazanc götürmək üçün obyektin restoran kimi deyil, mərasim evi kimi fəaliyyət göstərməsini təmin edirlər"*

Bakıdakı bəzi restoran və şadlıq evlərinin mərasim evlərinə çevrilməsinin səbəbi nədir?

Ekspertlərin qeyd etdiyinə görə, hazırda paytaxtda çoxlu sayda şadlıq evi, restoran, kafe, əyləncə yerləri var ki, ora insanların axını kütləvi deyil. Belə ictimai iaşə obyektlərinin aylarla qapısının açılmadığını deyən ekspertlər hesab edirlər ki, bu səbəbdən də həmin obyektlər öz təyinatlarını dəyişməyə məcbur olublar.

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəylinin fikrincə, buna səbəb insanların restoran və kafelərə kütləvi marağının azalmasıdır.** O, həmçinin, qeyd etdi ki, hazırda paytaxtda xeyir-şər evlərinin azlıq təşkil etməsi, xeyir-şər xidməti göstərən firmaların çox baha qiymətə xidmət göstərməsi nəticəsində restoranlara yeni gəlir yeri açılıb. "Bilirsiniz ki, bu gün mərasim evləri kimi fəaliyyət göstərən restoran və şadlıq evlərinin xeyli qismi vaxtilə çox populyar olan, müştərisi bol olan obyektlərdir. Son zamanlar isə Bakıda daha gözəl restoranlar, şadlıq evləri tikilməsi nəticəsində bu restoranların müştərilərinin sayı azalmağa başladı. Restoran tanıyıram ki, ayda bir dəfə qapısını döyən yoxdur. Odur ki, onların bəziləri öz işçi heyətinin yarı hissəsini saxlamaqla mərasim evləri kimi fəaliyyət göstərirlər. Restoran biznesi bir vaxtlar çox populyar olduğundan, iş adamları, vətəndaşlar əsasən bu işlə məşğul olurdular. Amma bu gün insanlar daha çox əylənmək, istirahət etmək üçün dənizkənarı restoranlara, eləcə də Bakıya yaxın olan Qubaya, Xızıya və başqa yerlərə üz tuturlar. Bu da restoranlara tələbatın azalmasına səbəb olur. Bir-birinə yaxın yerdə yerləşən o qədər kafe, restoran var ki, onların hamısının eyni dərəcədə müştəri cəlb etməsi çətindir. O restoranların hazırda mərasim evi kimi fəaliyyətinə gəlincə, bu, sırf sosial sifarişdir. Bakının bir çox yerində xeyir-şər evləri, mərasim zalları yoxdur. "Təzəpir" və digər yerlərdə də ehsan verməyə çox adamın gücü çatmır. Bilirsiniz ki, çadır qurmaq da həddindən artıq baha başa gəlir. Bütün bu məsələlər bəzi şadlıq evləri və restoranların qarşısında yeni yol açdı. Onlar bu gün xeyir-şər evinin funksiyasını yerinə yetirirlər. Sözün açığı, bu gün restoran biznesi elə də gəlirli sahə deyil, amma o restoranların mərasim evi kimi fəaliyyət göstərməsinə tələbat var" - deyə F.Hacıbəyli qeyd etdi.

**Sosioloq Şahin Hacıyevin sözlərinə görə isə restoran və şadlıq evlərinin mərasim evi kimi fəaliyyət göstərməsi paytaxtda restoranlara tələbatın az olması ilə bağlıdır.** "Bu gün Bakıda saysız restoran, kafelər, əyləncə yerləri var. Bunların əksəriyyəti öz fəaliyyətlərini turistlərin marağına və tələbatına uyğun qurub. Turistlər də əsasən mərkəzdə yerləşən restoran və kafelərə üz tuturlar. Bir də onlar əsasən dənizkənarı məkanlarda yerləşən restoranlara gedirlər.

Paytaxtın elə yerləri var ki, oradakı restoranlara nə turist gedir, nə də yerli sakin. Bu da restoranlar üçün böyük itki deməkdir.

**Odur ki, restoran sahibləri vaxtilə böyük xərc çəkib tikdirdiyi binanı saxlamaq, ondan qazanc götürmək üçün obyektin restoran kimi deyil, mərasim evi kimi fəaliyyət göstərməsini təmin edirlər. Bu gün o restoranı alan da yoxdur ki, satsın, ona görə də ondan bu cür istifadə edir" - deyə müsahibimiz vurğuladı.**

***İradə SARIYEVA***

# Yas mərasimləri yalnız qəbiristanlıqların yanında?...

**Nazirlər Kabinetinin qərarına əsasən, hazırda yeni qəbiristanlıq ərazilərinin seçilməsi üçün işlər aparılır. Aparılan işlər sayəsində yas mərasimləri bundan sonra qəbiristanlıqların yanında keçiriləcək.**



*İsmayıl Əhməd: "Yas mərasimlərinin qəbiristanlığa yaxın ərazidə keçirilməsi, istər-istəməz, mərasimdə iştirak edəcək insanların..."*

*Hacı Təyyar Hüseynli: "Yas mərasimlərinin qəbiristanlığa yaxın ərazidə keçirilməsi mümkündür"*

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov media nümayəndələrinə açıqlamasında deyib ki, yeniliklərin tətbiqində əsas məqsəd bu sahədə sosial ədalətin təmin edilməsidir: "Maddi cəhətdən imkanı aşağı olan ailələr üçün isə yas mərasimlərini bələdiyyələr təşkil edəcək".

Qeyd edək ki, qəbiristanlıqların salınması və idarə edilməsi qaydalarına əsasən, bu ərazilərin idarəçiliyi bələdiyyələrin ixtiyarına verilir. Yas mərasimlərinin qəbiristanlıqların yanında bələdiyyələr tərəfindən keçirilməsi bəzi ekspertlər tərəfindən müsbət qarşılanır.

**Dinşünas İsmayıl Əhməd "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qəbiristanlıq ərazilərində yas mərasimlərinin keçirilməsi mümkün haldır.** Ancaq mərasimin qəbiristanlığa yaxın ərazidə keçirilməsi, istər-istəməz, mərasimdə iştirak edəcək insanların sayına təsir edəcək: "Buna psixoloji tərəfdən də yanaşmaq lazımdır. Elə insan var ki, onun qəbiristanlığa qarşı kompleksi var. Orada verilən ehsanlara da əlini vurmayacaq. Bu kimi məsələlər nəzərə alınmalıdır. Eyni zamanda, uzaqda yaşayan insanlar nə üçün qəbiristanlığa yaxın ərazidə yas mərasimi keçirməlidirlər? Bu qayda könüllü olmalıdır".

**İlahiyyatçı Hacı Təyyar Hüseynli bildirdi ki, qəbiristanlıqların bələdiyyələrin ixtiyarına verilməsi müsbət haldır.** Yeni qərara əsasən, aztəminatlı ailələrə dəstək, onların kədərinə şərik olmaq üçün yas mərasimlərinin bələdiyyələr tərəfindən keçirilməsi məqsədəuyğundur. O hesab edir ki, bu qaygı cəmiyyətin məmnunluğuna xidmət edən dövlət proqramıdır: "Qəbiristanlıqların fəaliyyətinin, eləcə də yas mərasimlərinin tənzimlənməsinə ehtiyac var idi.

İndi bu məsələyə bu ilki bələdiyyə seçkilərindən sonra daha yaxından baxılacaq. Hesab edirəm ki, yas mərasimlərinin qəbiristanlığa yaxın ərazidə keçirilməsi mümkündür.

Bu qayda bir çox ölkədə tətbiq olunur. Bunun əhəmiyyəti odur ki, burada qiymətlər nisbətən ucuz olacaq və ölü sahibi elə də böyük çətinliklərlə üzləşməyəcək".

***Günel CƏLİLOVA***

## Vətənpərvər gəncin yetişdirilməsində maarifləndirmənin böyük rolu...

**Məlum olduğu kimi, Vətən amalı və azərbaycançılıq ideologiyası vətənpərvərlik anlayışı ilə birbaşa əlaqədardır. Vətən təəssübkeşliyi, vətənpərvərlik milli qürur və milli ləyaqət hissilə vəhdətdə digər bir məfhumun - azərbaycançılığın özəyini təşkil edir.**




Xatırladaq ki, bu ideyanın əsası ümumilli lider Heydər Əliyev tərəfindən qoyulub. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev milli vətənpərvərlik haqqında demişdir: "Milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun". Ulu Öndər vətənpərvərliyi, vətəndaşlıq duyğusunu xalqın, vətənin taleyinin tərkib hissəsi hesab edirdi. Dahi şəxsiyyətin azərbaycançılıq ideyasının güclənməsində, onun etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə keçirilməsində müstəsna rolu vardır. Ümummilli lider vətənpərvərliyə və dövlətçiliyə əsaslanan azərbaycançılığı qurdu, yaratdı, eyni zamanda, əməli surətdə həyata keçirdi. Milli ideologiyadan, azərbaycançılıq ideologiyasından danışarkən, böyük insan hər bir azərbaycanlının vətənpərvərlik hissləri ilə yaşamasını daim önə çəkirdi: "Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun". Vətənpərvərlik vətənə məhəbbət, əcdadların ənənələrinə hörmət deməkdir. Böyük öndər Heydər Əliyev gənclərin vətənpərvərlik tərbiyəsinə azərbaycançılığı, qəhrəmanlığı əxz etməklə bütün çətinlikləri aradan qaldırmaq vasitəsi kimi baxırdı: "Siz də Azərbaycan xalqına xidmət edərək... Vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız". Hazırda demokratik, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolu ilə gedən Azərbaycan və bütün azərbaycanlılar ümummilli liderin layiqli siyasi varisi ölkə Prezidenti İlham Əliyevin ətrafında birləşərək, milli azərbaycançılıq və vətənpərvərliyin vəhdəti şəraitində müstəqilliyimizi daha da möhkəmləndirir. Dövlət gənclər arasında vətənpərvərlik hissinin yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifənin yerinə yetirilməsində əməli addımlar atmaqdadır. Etiraf edilməlidir ki, Birinci Qarabağ Müharibəsi iştirakçılarının və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması, onların müalicəsinin təşkili, məşğulluğunun təmini baxımından böyük işlər görülmüşdür. Dövlətin gənclər siyasətinin özəyini də məhz vətənpərvər gənclərin yetişdirilməsi ideyası təşkil edir. Hazırda respublikamızda yaradılan şərait nəticəsində vətənpərvər gənclər nəsli formalaşmaqdadır. Heç şübhəsiz ki, bu gənclər itirilmiş torpaqlarımızın bərpa olunmasında, işğal altında olan ərazilərimizin qaytarılmasında həlledici sözü deyəcək.

Birmənalı şəkildə qeyd etmək olar ki, gənclərdə vətənprərvərlik hissinin yüksəldilməsi üçün maarifləndirmə tədbirlərinin əhəmiyyəti kifayət qədərdir. Hazırda gənclər müxtəlif radikal dini qurumların, antiAzərbaycan fəaliyyətdə olan ayrı-ayrı qrupların təsiri altına düşmək ehtimalı yüksəkdir. Məhz gənclərin düzgün tərbiyə olunması, Vətənə məhəbbət hissinin aşılanması onları nəinki bu təsirlərdən, eləcə də zərərli vərdişlərdən qurtarmaq imkanı yaradır. Bu baxımdan Vətənpərvərlik tərbiyəsində xalqımızın qəhrəman oğulları, tarixi şəxsiyyətlər haqqında şagirdlərə verilən məlumatlar, aşılanan biliklər də güclü təsir qüvvəsinə malikdir. Onlar haqqında verilən məlumatlar əsasında şagirdlər həm tarixin müəyyən mərhələlərində xalqımızın həyatında, yadellilərə qarşı mübarizədə, müstəqilliyimizin əldə olunmasında, dövlətçiliyimizin qorunmasında, mədəniyyətimizin, ədəbiyyatımızın inkişafında böyük rol oynamış qəhrəmanları, tarixi şəxsiyyətləri, mədəniyyət xadimlərimizi tanıyır, həm də onların həyat və mübarizə yolu timsalında vətənpərvər kimi yetişirlər. Ölkəmizdə qeyd olunan milli və dövlət bayramları, tarixi günlər də əvəzsiz vətənpərvərlik tərbiyəsi vasitəsidir. Məhz bu vasitələrdən istifadə mütəmadi xarakter daşımalıdır ki, bütöv bir vətənpərvər gənc nəslin formalaşmasına nail olunsuz.

***Alim***

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

**"Təəssüf ki, bu gün təhsil sahəsində öz ixtisas fənlərini kifayət qədər yaxşı bilməyən insanlar çalışır". Bunu təhsil nazirinin müavini Məhəbbət Vəliyeva media nümayəndələrinə açıqlamasında deyib. O bildirib ki, 2014-cü ildən müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılır:**

# Təhsil nazirinin müavininin iradına dəstək reaksiyaları...

## *Kamran Əsədov: "Müəllim özü 50 faizdən aşağı biliyə malikdirsə, qarşısındakına nə öyrədəcək?"*




*"Nəticəsi aşağı olan müəllimləri işdən azad etmək, yerinə gənc, perspektivli, daha yüksək bilik və bacarıqlara malik olan şəxsləri götürmək lazımdır ki, rəqabət mühiti formalaşsın"*

"Bu qiymətləndirmə ilk dəfə idi keçirilirdi və məqsəd də o idi ki, hazırda təhsil sistemində çalışan işçilərin ixtisas bilikləri və metodikanı bilmə səviyyələri müəyyənləşdirilsin. Qiymətləndirmə nəticəsində məlum oldu ki, bu gün təhsil sahəsində elə insanlar çalışır ki, onlar heç öz ixtisas fənlərini kifayət qədər yaxşı bilmirlər. Bu da təəssüf doğurur. Bu gün də təhsil sistemində çalışanlar arasında öz ixtisas fənlərini yaxşı bilməyən müəllimlər var. Düzdür, onların sayı çox deyil".

Ekspertlər də hesab edirlər ki, bu gün orta məktəblərdə çalışan müəllimlər arasında öz ixtisasını bilməyənlər az deyil.

**Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, istənilən cəmiyyətin inkişafı təhsildən, ilk növbədə isə onun bünövrəsi olan orta təhsildən və əlbəttə ki, müəllimlərindən asılıdır.** Müəllimlərin fəaliyyətinə, onların bilik və bacarığının keyfiyyətinə daimi nəzarət mexanizmi olmalıdır: "Bu gün Azərbaycanın 4481 orta məktəbində 151 min müəllim fəaliyyət göstərir. Onların ortalama yaşı 40-dır. Bu müəllimlərin 35 faizdən çoxu ali təhsilli deyil, texnikum təhsillidir. Və ən əsası isə müəllimlərin 70 faizi qadındır. Bütün bunlar nəticələrə təsir göstərən amillərdir. Bəzi hallarda müəllimlər savadlı olsalar da, kompyuterdən istifadə etmək bacarıqları olmadığına görə yaxşı nəticə göstərə bilmirlər.

2014-cü ildən etibarən Təhsil Nazirliyi orta məktəblərdə çalışan müəllimlərin bilik və bacarıqlarının yoxlanılması üçün diaqnostik imtahanlara başladı. İlk vaxtlar sınaq imtahanı olaraq keçirilməyə başladı, sonradan oldu diaqnostik qiymətləndirmə. Burada müəllimlərin yalnız bilikləri yoxlanıldı, bacarıqları yox. İştirakçılara 60 test tapşırığı təqdim edilir. İlk vaxtlar belə bir tələb qoyulmuşdu ki, 10 faiz nəticə göstərənlər diaqnostik qiymətləndirmədən keçmiş hesab olunacaq. Sonradan bu da dəyişdi, bilirsiniz ki, 2016-cı ilin yanvar ayının 1-dən ölkə başçısı müəllimlərin maaşının artırılması barədə sərəncam imzaladı, dərs saatları da artırıldı. Bundan sonra başladılar diaqnostik qiymətləndirmədə iştirak edənlərin topladığı bala görə onlara dərs saatı verməyə. Mənim fikrimcə, müəllim heç bir halda öz ixtisasından 50 faizdən aşağı nəticə göstərməməlidir. Müəllim özü 50 faizdən aşağı biliyə malikdirsə, qarşısındakına nə öyrədəcək?

Əlbəttə ki, özü minimum biliyə malik olmayan müəllim qarşısındakına nəsə öyrədə bilməz. Öz ixtisasını belə bilməyən müəllimin maaşını artırmaq məntiqsizdir. İlk növbədə hesab edirəm ki, nəticəsi nəinki 10-dan, ümumiyyətlə, tədris etdiyi fəndən 50 faizdən aşağı səviyyədə nəticə əldə etmiş müəllim işdən azad edilməlidir. Onun yeri vakansiya elan olunmalı və daha savadlı, müasir texnologiyalardan istifadə edə bilən gənc müəllimlər işə qəbul edilməlidir.

Hesab edirəm ki, müəllimləri aşağı nəticə göstərmiş məktəbin direktorları da işdən azad edilməlidir. Çünki o, vəzifənin öhdəsindən layiqincə gələ bilməyib, müəlliminin təkmilləşməsinə təşəbbüs göstərməyib. İnanıram ki, növbəti tədris ilində saxta sənədlərdən istifadə edərək müəllim işləyən və diaqnostik imtahanda aşağı nəticə əldə etmiş müəllimlərin fəaliyyətinə xitam veriləcək. Bu müəllimlər ancaq dövlət büdcəsinin vəsaitini mənimsəməklə məşğul olurlar. Onların işlədiyi məktəblərə baxsaq görərik ki, son illər ərzində həmin təhsil müəssisələrindən ali məktəblərə qəbul faizi çox aşağıdır.

Təəssüf ki, Təhsil Nazirliyi diaqnostik qiymətləndirmədə nəticəsi zəif olan müəllimlərlə bağlı heç bir addım atmadı, saxta diplomlularla da bağlı heç nə etmədi. Ən azından, zəif nəticə göstərən müəllimlər təlimlərə, təkrar imtahanlara cəlb edilməli idi, amma olmadı. Diaqnostik qiymətləndirmələrə başlanmasından artıq 4 ildən çox vaxt keçir, indiyədək məktəblər, rayonlar üzrə hansı müəllimin nə qədər bal toplaması ilə bağlı ictimaiyyətə açıq məlumat verilmir. Dövlət İmtahan Mərkəzi keçirdiyi imtahanların nəticələrini açıb ortaya qoyur ki, baxın, biz buyuq. Amma Təhsil Nazirliyi 4 ildir bu imtahanın nəticələrini açıqlamır, məsələn, bilinmir ki, Neftçala rayonunun məktəblərində bu müəllimlər filan qədər bal toplayıblar. Bunları ictimaiyyətə açıqlamaq lazımdır.

Nəticəsi aşağı olan müəllimləri işdən azad etmək, yerinə gənc, perspektivli, daha yüksək bilik və bacarıqlara malik olan şəxsləri götürmək lazımdır. Rəqabət mühiti formalaşdırılmalıdır".

***Günel CƏLİLOVA***

# Bakıdan rayonlara gedən yol kənarında ayaqyolu problemi - ya yoxdur, ya da bərbad gündə...

**Dünya ölkələri arasında xarici iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi müasir dövrdə beynəlxalq turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Ümumiyyətlə, turizm xidmətin xüsusi bir sahəsi olmaqla, insanların beynəlxalq hərəkəti və yaxud səyahəti ilə bağlıdır. Bu sahənin inkişafı XX əsrin ikinci yarısından başlayaraq geniş vüsət alıb.**



Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirib. Məlumdur ki, ölkəmizdə bu əlaqələrin bir qolu olan beynəlxalq turizm münasibətlərinin inkişafı istiqmətində də təqdirəlayiq işlər görülüb. Artıq Azərbaycan turizmi inkişaf dövrünü yaşayır. Dünyanın dörd bir yanından ölkəmizə turistlər gəlir. Ümumiyyətlə, xarici ölkələrdən Azərbaycana turist axını artmaqda davam edir.

Açıqlanan statistik rəqəmlərə əsasən, ölkəyə gələn turistlərin sayı ötən ilin 6 ayı ilə müqayisədə 6,5 faiz artıb. Ölkəyə gələn turist sayını artırmaq üçün çoxlu işlər görülür. Görülən işlərə baxmayaraq, bəzi sahələrdə müəyyən problemlər var. O problemlərdən biri də yol kənarındakı ayaqyollarının bərbad vəziyyətdə olmasıdır. Bu problem daha çox paytaxtdan bölgələrə gedərkən yol kənarlarında olan ayaqyollarında müşahidə olunur. Azərbaycana gələn əcnəbi turistləri narahat edən məsələlərdən biri də ictimai tualetlərin az olması, bəzi yerlərdə isə ümumiyyətlə olmamasıdır. Bu hal ölkəyə istirahət üçün gələn turistlərin narazılığına səbəb olur.

*__Elgün Cavadov:__ "Bakı-Şəki əsas turizm marşrutu hesab olunduğu üçün, gələcəkdə qeyd olunan istiqamət üzrə sahibkarlıq subyektləri içərisindəki sanitar qovşaqların yaxşılaşdırılması layihəsinin olması gözlənir"*

*__Elçin Rüstəmov:__ "Paytaxtdan bölgələrə gedərkən yol kənarında olan ayaqyollarının əksəriyyətinin vəziyyəti bərbaddır"*

**Dövlət Turizm Agentliyinin Regional turizm və qoruqların inkişafı sektorunun müdiri Elgün Cavadovun sözlərinə görə, məsələ agentliyin diqqətindədir:** "Bununla bağlı layihələndirmə işləri də aparmışıq. İlkin olaraq Dövlət Turizm Agentliyinin rəhbərliyinə iki layihə təqdim etmişik. Bakı-Şəki istiqaməti bizim əsas turizm marşrutu hesab olunur, gələcəkdə marşrutlar çoxalacaq. Bu marşturun üzərində olan bir çox rayonda sahibkarlıq subyektləri içərisindəki sanitar qovşaqların yaxşılaşdırılması layihəsi olub. Hələ ki, layihə yekunlaşmayıb. Əslində, nə vaxt yekunlaşması dəqiq deyil. Ümid edirik ki, bu il ərzində və gələn ilin ilk aylarında bu layihəni həyata keçirəcəyik. Bundan başqa, bu ildən və gələn ilin əvvəlindən bir çox turizm rayonunda, xüsusən də turizm marşrutları üzərində olan rayonlarda sahibkarlıq obyektlərində təlimlər keçirəcəyik. Bu təlimlərin məqsədi həm xidmət səviyyəsinin yüksəldilməsi, həm də turistə olan davranışların yaxşılaşdırılması istiqamətindədir. Burada da biz həmin restoranlara tövsiyələr verəcəyik ki, dəyişikliklər etsinlər".

**Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, paytaxtdan bölgələrə gedərkən yol kənarında olan ayaqyollarının əksəriyyərinin vəziyyəti bərbaddır:** "Bəzisində su var, əl yumağa duru sabun, başqa birisində su olmur. Ümumiyyətlə, yol kənarında ayaqyollarında natəmizlik hökm sürür. Sanki illərdir həmin yer təmizlənmir. Təbii, qorxunc mənzərəni görən turistin Azərbaycan haqqında fikri dəyişəcək. Bərbad və natəmiz vəziyyətdə olan ayaqyolu üzündən xarici qonaqların yanında xəcalət çəkirik. Yaxşı olar ki, yol kənarında fəaliyyət göstərən restoran sahibləri obyektləri təmir etməklə yanaşı, ayaqyollarına da nəzər yetirsinlər. Bəzi sahibkarlar bu sahədə yaşanan problemdən xəbərdar olsalar da, həll etmək istəmirlər. Hətta bir neçə nəfərlə söhbətimiz olub, onlardan, "ay filankəs, imkanın da var, bəs niyə bir 20-30 dənə sivil, təmiz, səliqəli, pullu ayaqyolu açmırsan trass boyunca, suyu, sabunu, lavandalı fısfıs, farfor aftafa filan, gör nə qədər para qazanarsan" soruşmuşuq. Bəziləri deyir ki, "yox, mən bunu heç vaxt etmərəm, hərçənd problemin olmasını inkar etmirəm. Sonra məni öz adımla deyil, "tualet filankəs!" deyə çağırarlar". Bu səbəbdən də sahibkarlar bu sahədən yan keçirlər. Nəticədə isə natəmizlik baş alıb gedir və bu hal turizmə təsir edir. Yaxşı olar ki, aidiyyəti qurumlar bu məsələni nəzarətə götürsünlər".

*Günel CƏLİLOVA*

# Nehrə yağı adı altında satılan malın tərkibində nələrin olduğunu bilsəniz...

**Satışda olan yağların tərkibində müxtəlif qarışıqların olması, onların təmiz olmaması ilə bağlı məsələ tez-tez gündəmə gəlsə də, bu problem illərdir həllini tapmır. Ölkə əhalisi təmiz kərə yağı kimi əsasən "nehrə" yağı adı altında satlan məhsulları tanıyır.**



*__Eyyub Hüseynov:__ "Nehrə yağı adı altında satılan yağlar saxtadır"*

Ancaq belə bir fikir var ki, illər öncədən fərqli olaraq, indi "nehrə" yağı adı altında satışa çıxarılan məhsulların 90 faizi saxtadır. Hətta bir neçə gün əvvəl Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli media nümayəndələrinə açıqlamasında bildirib ki, "nehrə yağı" adı altında Azərbaycanın müxtəlif regionlarında satışa çıxarılan keyfiyyətsiz qidanın tərkibində müxtəlif qarışıqlar və insan orqanizmi üçün təhlükəli maddələr aşkar olunub. Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bizimlə söhbətində bildirdi ki, hazırda əsas problemlərdən biri markalanma ilə bağlıdır. İstehlakçı üçün məlumat standartı olmadığından, hər kəs istədiyi kimi qarışıq yağları kərə yağı adı ilə markalayır. Malın üzərinə inək şəkli vurulur və "təbii təmiz yağ" yazılır: "İstehlakçı da buna aldanır və yağı alır, amma məlum olur ki, bu yağ bitki yağlarının qarışığıdır. Malın üzərində adı və tərkibi yazılmalıdır". Onun sözlərinə görə, nehrə yağı adı altında satılan yağlar saxtadır: "İndiki milli nənələr bir az qatıq, bitki və marqarin yağını həmin nehrəyə tökürlər. Guya kərə yağı hasil edirlər. Ümumiyyətlə, rayonlardan gələn yağlarda ciddi problemlər var. Ona görə də araşdırma aparılmalıdır. Həmçinin bununla yanaşı nehrə yağı altında yerli kütləvi istehsal malı da var. İkisi də nehrə yağı adı altında satılır. Analizlə göstərir ki, onun tərkibində heç 1 faiz belə nehrə yağı yoxdur. Qarışıq bitki yağlarından, marqarinlərdən və piylərdən qarışdırılıb istehsal edilirlər". Birlik sədri bildirdi ki, saxta nehrə yağları insanlar üçün təhlükəli ola bilər: "Bu yağlar arzuolunan deyil. İnsanlara zərər verə bilər. Təhlükəli də ola bilər. Çünki primitiv üsulla hazırlanır. İstehlakçıları aldadırlar. Bunun üçün də gərək ölkədə effektli istehlakçı siyasəti olsun".

*"İndiki milli nənələr bir az qatıq, bitki və marqarin yağını həmin nehrəyə tökməklə guya kərə yağı hasil edirlər"*

Ekspert onu da vurğuladı ki, kəndlərdən şəhərə gətirilərək camış yağı adı altında satılan yağların da 90 faizi saxtadır. Heyvanların iç yağını qarışdırırlar və əridəndə pis qoxu gəlir. Bunlar insan sağlamlığı üçün təhlükəlidir.

*Günel CƏLİLOVA*

№ 125 (4023) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

17 İYUL 2019-cu il

www.baki-xeber.com



## "Facebook" professional oyunçulara qalib gəlib

**"Facebook" şirkəti Karnegi-Mellon Universiteti ilə birlikdə süni zəka texnologiyasına sahib Pluribus adlı bot yaradıblar.**

Həmin bot isə limitsiz holdemdə (pokerin ən məşhur növü) professional oyunçulara qalib gəlib. "Technote.az" bildirir ki, bu cür süni zəka botunu yaratmaq çox qəlizdir. Çünki, şahmatdan fərqli olaraq pokerdə gizli məlumat var. Söhbət, rəqiblərin kartlarından gedir. "Pluribus" adlı bot isə öz rəqiblərinin hansı kartlara sahib olduqlarını təyin etməyə çalışıb. Sözügedən bot ilə müxtəlif vaxtlarda World Series of Poker-in iki qalibi yarışıb. Qeyd etmək lazımdır ki, bu, qeyri-rəsmi şəkildə ən nüfuzlu poker çempionatıdır. Alqoritm öz rəqiblərinə müxtəlif formatlarda qalib gəlib: 5 süni zəka botu və 1 real oyunçu, 5 real oyunçu və 1 süni zəka botu. "Pluribus" botu Libratus adlı botun daha təkmilləşdirilmiş versiyasıdır. Bir neçə il bundan öncə isə Libratus təkbətək oyunlarda öz rəqiblərinə qalib gələ bilirdi. Botun yeni versiyası isə oyun zamanı 128 GB-dan daha aşağı yaddaş göstəricisindən və iki qrafik prosessordan istifadə edir. "Facebook"un məlumatına əsasən indiki mərhələdə bu bot eyni anda bir neçə professional poker oyunçusuna qalib gələ bilər.

**Elan**

Bakı şəhəri, 3-cü mikrorayon, H.B. Əliyev küçəsində yerləşən, ümumi sahəsi 41.37 kv.m. olan 2 otaqlı evin Həsənova Müşkünaz Bilal qızının adına verilmiş çıxarışı itdiyindən etibarsız sayılır.

Qeydiyyat nömrəsi 308013002313160605241 olan, 02.10.2006-cı ildə Əliyev Rəşad Pircan oğluna Masazır bələdiyyəsi tərəfindən verilmiş 6 sot torpaq sahəsi üçün çıxarış sənəd etibarsız hesab olunsun.

Şəki rayonu, Qırxbulaq kənd sakini Bayramov Əlövsət Soltan oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 042 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Rzayev Mübariz Ağadadaş oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, ev 16 A, mənzil 24 ünvanına verilmiş çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Əlikişibəyov Asim Naim oğlunun adına, Bakı şəhəri, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsi, 1239 a saylı bağ sahəsinə verilmiş çıxarış (seriya MH №0156362) itdiyi üçün etibarsız sayılır.

Ələsgər Tofiq Aslan oğlunun adına, Bakı şəhəri, M.Muxtar (Paluxin) küçəsi, dalan 3, ev 10 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ələsgərova Tahirə Vahab qızının adına, Bakı şəhəri, B.Nuriyev küçəsi, ev 3, mənzil 42 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

## Amerikalılardan nadir tapıntı... 10 min kvadrillyon dollarlıq qızıl asteroid...



**Amerikalı ekspertlər platin, dəmir, nikel və qızıldan ibarət asteroid tapdıqlarını açıqlayıblar. Kosmik obyekt "Psixeya 16" adını alıb.**

Adi astronomik müşahidələr nəticəsində ABŞ-ın Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqi İdarəsinin mütəxəssisləri nadir asteroid aşkar ediblər. Asteroidin əsas xüsusiyyəti onun tərkibidir. Asteroidin tərkibində dəmir, platin, nikel və qızıl var. Göy cisminini təhlil edən ekspertlər onun dəyərinin, təxminən, 10 min kvadrillyon dollar olduğunu söyləyiblər. Bundan əlavə, tədqiqatçılar bu asteroidin bütün Yer iqtisadiyyatını darmadağın edə biləcəyinə inanırlar. Alimlər nə vaxtsa bu asteroidi planetimizin səthinə "endirmək" mümkün olacağına şübhə edirlər. Lakin, əgər bu baş verərsə, Yer üzünün hər bir sakininin milyarder olması üçün kifayətdir.

## Dünyanın ilk üzən südçülük ferması fəaliyyətə başlayıb

**Dünyanın üzən ilk südçülük ferması fəaliyyətə başlayıb. Hollandiyanın ikinci böyük şəhəri Rotterdamda dünyanın ilk üzən südçülük ferması açılıb.**



Hazırda fermada 32 baş inək mövcuddur. Burada sağım prosesi həm avtomatlaşdırılmış, həm də robotlaşdırılmış üsulla aparılır. Süd istehsalı ilə bərabər fermada çoxsaylı günəş batareyaları vasitəsilə elektrik enerjisi istehsal olunur. Bu qeyri-adi təsərrüfatın məqsədi ənənəvi qida məhsullarının suda istehsalının mümkünlüyünü araşdırmaqdır

## Natron gölü canlıları daşa çevirir...

**Milyonlarla flaminqonun çoxalma sahəsi olan və Avropalılar tərəfindən ilk dəfə 1954-ci ildə kəşf edilən Natron gölü qorxu filmlərini xatırladan bir şöhrətə sahibdir.**

Tanzaniyada yerləşən Natron Gölü sahib olduğu yüksək ph dəyəri səbəbiylə daşlaşmanı sürətləndirir. Sodalı bir quruluşa sahib olan Natron Gölü ilk baxışda bir xəyal məhsulu kimi ağıla gəlir. Daşıdığı göl şirəsinin qələvi quruluşu və 10.5'dən yüksək ph dəyəri Natron Gölünü potensial bir təhlükə halına gətirir. 10.5 kimi yüksək ph dəyərini bələ aşan göl suyu, özünə uyğun olmayan canlıların dərilərini və gözlərini yandırır. Aşındırıcı soda kimi quruluşa sahib olan Natron Gölü, natrium karbonat və digər minerallar baxımından son dərəcə zəngindir. Bu zənginlik Qədim Misir mumyalarının hazırlıq mərhələsində istifadə edilən natrium karbonatı da ehtiva etdiyi üçün çürümə əngəllənir. Medusanın lənətindəki kimi anında baş tutmayan daşlaşma, müəyyən bir proseslə yayılır və göl də heykəl bağına çevrilir. Bu göldə çəkdiyi fotoları "Across the Ravaged Land" adlı kitabında toplayan fotoqraf Nik Brandt, çəkdiyi canlılar üçün yaşayan ölülər qiymətləndirməsini edib. Brandt, "Heyvanları bu halda tapmağı gözləmirdim. Göl şirəsinin Kodak kino qutularımın mürəkkəbini bir neçə saniyə içində qurtardığını deyə bilərəm" ifadələrini bildirib.





**Qoç** - Günün ilk yarısında xırda problemlər nigaranlıq yaradacaq. Çoxdan bəri həllini tələb edən məsələ yenidən gündəmdədir. Tələsik davranmayın, düşünülməmiş qərarlar verməyin. Axşam saatlarında planlar qəflətən dəyişə bilər.



**Buğa** - Emosional, gərgin gündür. Şəxsi planlarınızı reallaşdırmaq üçün müstəqil çalışaraq tək qala bilməyəcəksiniz. Ailə üzvlərinin yardım istəklərinə soyuq yanaşsanız, münaqişə istisna deyil.



**Əkizlər** - Bilik və bacarıqlarınızı tam nümayiş etdirin. Ətrafınızdakı insanlar sizdən təşəbbüskarlıq, təşkilatçılıq bacarığının izharını və ümumi məqsədlərə çatmaq üçün pozitiv davranış gözləyirlər.



**Xərçəng** - Narahatlıq və təlaşa qapılaraq fəsadları ağır ola biləcək səhvlərə yol verməyin. Günün ikinci yarısında münasibətlərdəki problemləri aradan qaldırmaq üçün təşəbbüskar siz olun.



**Şir** - Emosiyalarınız artacaq, hissləriniz aktivləşəcək. Öz mövqeyini absolyut həqiqət sayan insanlarla ehtiyatlı davranın. Yalnız peşəkar fəaliyyət müstəvisində mübahisələr etmək olar.



**Qız** - Eyni vaxtda bir neçə işə başlamayın. Yalnız təcili həll tələb edən, cari məsələlərlə məşğul olun. Gecikmə, təxirəsalma, çalışdığınız insanların qeyri-dəqiqliyi istisna deyil. Anlaşılmazlıq münaqişə vəziyyəti yarada bilər.



**Tərəzi** - Hadisələrə süni təkan verməyin. Spontan olayların məcrasında hərəkət etməyin. Bununla yanaşı, situasiyanı nəzarətdə saxlayın. Yalnız öz maraqlarınızı düşünərək başqalarının mənafelərini kobud şəkildə qulaqardına vurmayın.



**Əqrəb** - Qarşınıza konkret məqsəd qoyub-sunuzsa, plana uyğun hərəkət edin. Qətiyyətli, iradəli və əzmkar olun. Dürüst kursla irəlilədiyinizə əmin olun. Peşəkarlığınızı nümayiş etdirin.



**Oxatan** - Tələskənliyə yol verməyin, aramla çalışın. Qərarların qəbulunda müstəqil olun. Müəyyən addımları ətrafınızdakı insanlarla razılaşdırmalısınızsa, emosional amilləri mütləq nəzərə alın.



**Oğlaq** - Pozitiv olun, bədbin fikirlərdən uzaq durun. Tənbəllik etməyin. Ailə qayğıları və məişət işlərini ön plana çıxararaq bilavasitə məşğul olmanız gərəkən məsələləri unutmayın. Alış-veriş üçün münasib zamandır.



**Dolça** - Daşınmaz əmlak və ərzaqla bağlı əməliyyatlar uğurlu nəticə verə bilər. Əldə etdiyiniz nailiyyətlərinizin ətrafınızdakı insanlar tərəfindən təqdirini gözləməyin. Kimsəyə fikir vermədən irəliləyin.



**Balıqlar** - Rahatlığa can ataraq qarşınızdakı sədləri və maneələri görməzdən gəlməyin. Çətinliklər həllini tələb edir. Yaşam arealının rekonstruksiyası üçün əlverişli zamandır. Psixoloji amillərə diqqətli yanaşın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Batmayan qadın"ın həyatı film olur

**"Titanik", "Olimpik" və "Britannis" gəmilərində baş verən qəzalardan sağ qurtulmağı bacaran irlandiyalı stüardessa Violet Cezzop haqqında film çəkiləcək. "Seanews.az" bildirir ki, filmdə onun qeyri-adi həyatı canlandırılacaq.**

Hələlik, Violet obrazında kimin çəkiləcəyi məlum deyil. Çəkilişlərə yaxın aylarda başlanacağı bildirilir. İlk dəfə 1911-ci ildə "Olimpik" "HMS Havk" adlı müharibə gəmisi ilə toqquşdu.

**"Olimpik"in batmasının qarşısı alındı. Violet bu qəzadan sağ qurtuldu. İkinci dəfə "Titanik"ə göndərilən Violet tarixin ən böyük gəmi qəzasından da canını qurtardı.**

O, üçüncü dəfə Birinci Dünya Müharibəsində xəstəxana kimi istifadə edilən "Britannis"dən sağ çıxıb. Qəzalara baxmayaraq, öz işinə davam edib və 60 yaşında gəmilərdən ayrılıb. 83 yaşında isə ürək çatışmazlığından vəfat edib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.